RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 54 (8370) ÇƏRŞƏNBƏ, 11 mart 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






Martın 10-da altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib.

İclası Milli Məclis Aparatının rəhbəri **Səfa MİRZƏYEV** açaraq dedi:

- Zati-aliləri, möhtərəm cənab Prezident.

Sizi Milli Məclisdə salamlamaq böyük qürurdur. Milli Məclisə, doğma evinizə xoş gəlmisiniz.

Müstəqil Azərbaycan dövlətinin qurucusu Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyasını yaradıcı surətdə davam etdirdiyinizə və Azərbaycan xalqının maraqlarına xidmət edən dövlətçilik fəaliyyətinizə görə Sizə dərin təşəkkürümüzü bildirir, gələcək işlərinizdə yeni böyük uğurlar arzulayırıq.

Hörmətli deputatlar, hörmətli qonaqlar, xanımlar və cənablar.

Azad, ədalətli və şəffaf seçkilər nəticəsində formalaşmış altıncı çağırış Milli Məclis fəaliyyətə başlayır. Hörmətli deputatlar, Milli Məclisə seçilməyiniz münasibətilə sizi səmimi qəlbdən təbrik edirəm.

Milli Məclisin Daxili Nizamnaməsinin ikinci maddəsinə görə, Milli Məclisin ilk iclasını ən qocaman deputat aparır. Bu şərəfli missiya Milli Məclisin deputatı, akademik Ziyad Səmədzadəyə nəsib olmuşdur. Hörmətli Ziyad müəllim, xahiş edirəm iclasa başlayasınız.

İclasa sədrlik edən Ziyad Səmədzadə altıncı çağırış Milli Məclisin ilk iclasını açıq elan etdi.

**Ziyad SƏMƏDZADƏ** dedi:

- Hörmətli cənab Prezident, Azərbaycan dövlətinin iqtisadi və siyasi qüdrətinin güclənməsində böyük töhfələr verdiyinizə, Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirdiyinizə görə Sizə təşəkkürümüzü bildiririk. Sizə deputatlarımız adından möhkəm cansağlığı, uğurlar arzulayırıq.

Əminik ki, qloballaşan dünyada, risklərin artdığı bir şəraitdə Siz bundan sonra da Azərbaycan dövlətinə uğurla rəhbərlik edəcəksiniz, Azərbaycanı gündən-günə çiçəklənən, dünyada sözü, gücü, qüdrəti olan bir dövlətə çevirəcəksiniz. Sağ olun, Sizə təşəkkür edirəm.

Hörmətli deputatlar, Milli Məclisə seçilməyiniz münasibətilə sizi təbrik edirəm. Parlament fəaliyyətində sizin hər birinizə böyük uğurlar, cansağlığı arzulayıram. Milli Məclisin Daxili Nizamnaməsinin ikinci maddəsinə görə, yeni çağırış Milli Məclisin ilk iclasında Milli Məclisə seçilmiş deputatların siyahısı oxunmalıdır. İcazənizlə, altıncı çağırış Milli Məclisə seçilmiş deputatların siyahısını oxuyuram.

Z.Səmədzadə altıncı çağırış Milli Məclisə seçilmiş deputatların siyahısını oxudu.

Sonra Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Prezident İlham Əliyev altıncı çağırış Milli Məclisin birinci iclasında nitq söylədi.

## Prezident İlham Əliyevin nitqi

- Hörmətli deputatlar, hörmətli xanımlar və cənablar.

Altıncı çağırış Milli Məclis bu gün öz işinə başlayır. Bu münasibətlə bütün deputatları ürəkdən təbrik edirəm, onlara uğurlar arzulayıram.

İlk növbədə, beşinci çağırış Milli Məclisin deputatlarına göstərdikləri fəaliyyətə görə təşəkkürümü bildirirəm. Beşinci çağırış Milli Məclis, onun deputatları, rəhbərliyi ölkəmizin uğurlu inkişafı istiqamətində böyük rol oynamışlar, parlament tərəfindən qəbul edilmiş qanunlar bizim uğurlu inkişafımızın hüquqi bazasını gücləndirmişdir. Əminəm ki, altıncı çağırış Milli Məclis də uğurla fəaliyyət göstərəcək və beləliklə, ölkəmizdə aparılan genişmiqyaslı və çoxşaxəli islahatlara, onların dərinləşməsi işinə öz töhfəsini verəcəkdir.

Fevralın 9-da keçirilmiş parlament seçkiləri ölkəmizin həyatında önəmli hadisə idi. Hər bir seçkilər önəmli hadisədir, bu seçkilərin xüsusiyyəti ondan ibarət idi ki, o, növbədənkənar seçkilər idi. Bu seçkilərin fevral ayında keçirilməsinin əsas səbəbi islahatları dərinləşdirmək, vaxt itirmədən yeni tərkibdə Milli Məclisin işini təşkil etməkdir. Hesab edirəm ki, seçki prosesi uğurla keçdi və bu dəfə seçkilərə çox böyük maraq göstərilmişdir. Bunun əyani sübutu odur ki, bu seçkilərdə 1300-dən çox namizəd iştirak etmişdir. Əlbəttə ki, bu namizədlər fəal iş apararaq öz fikirlərini, baxışlarını, ideyalarını seçicilərə azad şəkildə çatdıra bilmişlər. Bütün namizədlər üçün bərabər şərait yaradılmışdır, heç bir ayrı-seçkiliyə yol verilməmişdir. 1300-dən çox namizədin olması, əslində, seçkilərə onlar tərəfindən göstərilən etimadın təzahürüdür. Hesab edirəm ki, bütövlükdə seçki prosesi həm uğurla keçmişdir, həm də seçkilərin nəticələri Azərbaycan xalqının iradəsini əks etdirmişdir. Əsas məsələ ondan ibarətdir ki, Azərbaycan xalqı bu seçkilərdən məmnun qalmışdır və seçkilərdən sonra müşahidə olunan hadisələr bunu bir daha göstərir.

Biz seçkiləri müşahidə etmək üçün bir çox beynəlxalq təşkilatları, müşahidəçiləri dəvət etmişdik və onların mütləq əksəriyyəti seçkilərin həm hazırlıq dövrünü, həm kampaniya dövrünü və həm də seçkilər gününü çox müsbət qiymətləndirmişdir. Demək olar ki, müşahidəçilərin mütləq əksəriyyəti seçkiləri demokratiyanın inkişafında növbəti uğurlu addım kimi qiymətləndirmişlər və bəyan etmişlər ki, Azərbaycan xalqı azad şəkildə öz seçki hüququndan istifadə edib və seçkilərin nəticələri real mənzərəni əks etdirir. Bunu bəyan edən beynəlxalq müşahidəçilər, əlbəttə ki, reallığı əks etdirir. Eyni zamanda, Azərbaycanda seçki prosesinə həmişə ikili standartlar prizmasından yanaşan və qeyri-obyektivliklə fərqlənən ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu və onun təsiri altında olan bəzi qurumlar bu dəfə də hansısa qüsurları qabardıb, onları böyük hadisə kimi təqdim etməyə çalışmışdılar. Heç bir seçki qüsursuz olmur. Bu dəfə də qüsurlar olub və 4 dairənin nəticələrinin ləğv edilməsi onu göstərir ki, bu qüsurların olmaması üçün Azərbaycan özü maraqlıdır. Seçkidən sonrakı proseslər bir daha onu göstərir ki, bizim əsas niyyətimiz ondan ibarət idi ki, Azərbaycan xalqı öz seçki hüququndan azad şəkildə istifadə etsin, bəyəndiyi namizədə səs versin, beləliklə, öz fikrini və öz siyasi iradəsini ifadə etsin.

*Ardı 2-ci səh.*

## Azərbaycan Respublikası Milli Məclisi komitələrinin sədrlərinin seçilməsi haqqında

### Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Azərbaycan Respublikası Milli Məclisinin deputatları aşağıdakı komitələrin sədrləri seçilsinlər:

**Əli Məhəmməd oğlu Hüseynli**
Hüquq siyasəti və dövlət quruculuğu komitəsi;

**Ziyafət Abbas oğlu Əsgərov**
Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsi;

**Zahid Məhərrəm oğlu Oruc**
İnsan hüquqları komitəsi;

**Sadiq Haqverdi oğlu Qurbanov**
Təbii ehtiyatlar, energetika və ekologiya komitəsi;

**Tahir Famil oğlu Mirkişili**
İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi;

**Tahir Musa oğlu Rzayev**
Aqrar siyasət komitəsi;

**Musa İsa oğlu Quliyev**
Əmək və sosial siyasət komitəsi;

**Əhliman Tapdıq oğlu Əmiraslanov**
Səhiyyə komitəsi;

**Hicran Kamran qızı Hüseynova**
Ailə, qadın və uşaq məsələləri komitəsi;

**Adil Abış oğlu Əliyev**
Gənclər və idman komitəsi;

**Fəzail Feyruz oğlu İbrahimli**
İctimai birliklər və dini qurumlar komitəsi;

**Siyavuş Dünyamalı oğlu Novruzov**
Regional məsələlər komitəsi;

**Bəxtiyar Həmzə oğlu Əliyev**
Elm və təhsil komitəsi;

**Qənirə Ələsgər qızı Paşayeva**
Mədəniyyət komitəsi;

**Səməd İsmayıl oğlu Seyidov**
Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 10 mart 2020-ci il*

## S.Ə.Qafarovanın Azərbaycan Respublikası Milli Məclisinin Sədri seçilməsi haqqında

### Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Azərbaycan Respublikası Milli Məclisinin deputatı Sahibə Əli qızı Qafarova Azərbaycan Respublikası Milli Məclisinin Sədri seçilsin.

***Ziyad SƏMƏDZADƏ,***
***Altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin birinci iclasına sədrlik edən***

*Bakı şəhəri, 10 mart 2020-ci il*

## Ə.M.Hüseynlinin Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini seçilməsi haqqında

### Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Azərbaycan Respublikası Milli Məclisinin deputatı Əli Məhəmməd oğlu Hüseynli Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini seçilsin.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 10 mart 2020-ci il*

## F.F.İbrahimlinin Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini seçilməsi haqqında

### Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Azərbaycan Respublikası Milli Məclisinin deputatı Fəzail Feyruz oğlu İbrahimli Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini seçilsin.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 10 mart 2020-ci il*

## A.A.Əliyevin Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini seçilməsi haqqında

### Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Azərbaycan Respublikası Milli Məclisinin deputatı Adil Abış oğlu Əliyev Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini seçilsin.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 10 mart 2020-ci il*

## Azərbaycan Respublikası Milli Məclisi İntizam komissiyasının təşkil edilməsi haqqında

### Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Azərbaycan Respublikası Milli Məclisi Daxili Nizamnaməsinin 41-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikası Milli Məclisinin İntizam komissiyası aşağıdakı tərkibdə yaradılsın:

1. Ağamalı Fəzail Rəhim oğlu,
2. Həsənov Nurlan Urfan oğlu,
3. Həsənova Afət Əbil qızı,
4. İbrahimqızı Məlahət İbrahim qızı,
5. İbrahimov Eldar Rza oğlu,
6. Məhəməliyev Nəsib Məhəmməd oğlu,
7. Məmmədov Hikmət Baba oğlu,
8. Məmmədov Məşhur Şahbaz oğlu,
9. Möhbalıyev Səttar Suliddin oğlu,
10. Musayev Madər Əliəsgər oğlu,
11. Səfərov Nizami Abdulla oğlu.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 10 mart 2020-ci il*

## Azərbaycan Respublikası Milli Məclisi Hesablayıcı komissiyasının təşkil edilməsi haqqında

### Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Azərbaycan Respublikası Milli Məclisi Daxili Nizamnaməsinin 40-cı maddəsinə uyğun olaraq, Azərbaycan Respublikası Milli Məclisinin Hesablayıcı komissiyası aşağıdakı tərkibdə yaradılsın:

1. Allahverdiyev Elnur Marat oğlu,
2. Əliyev Rauf Asif oğlu,
3. Hacıyev Emin Məcid oğlu,
4. Heydərov Fəttah Səməd oğlu,
5. Hüseynova Sevinc Əmirəhməd qızı,
6. Vəliyeva Sədaqət Süleyman qızı,
7. Zabelin Mixail Yuryeviç.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 10 mart 2020-ci il*

# Azərbaycan daim müstəqil, prinsipial və milli maraqlara uyğun siyasət yürüdür

## Prezident İlham Əliyev: “Əminəm ki, altıncı çağırış Milli Məclis ölkəmizdə aparılan genişmiqyaslı və çoxşaxəli islahatlara, onların dərinləşməsi işinə öz töhfəsini verəcəkdir”

*Əvvəli 1-ci səh.*

Bütövlükdə biz buna nail olmuşuq və seçkilərdən sonra artıq müşahidə olunan mənzərə onu göstərir ki, Azərbaycan xalqı seçkilərin nəticələri ilə razılaşıb. Bizim üçün əsas məsələ bundan ibarətdir.

Eyni zamanda, hesab edirəm ki, Avropa İttifaqı seçkilərin keçirilməsi ilə əlaqədar çox obyektiv bəyanat vermişdir. Bəyan etmişdir ki, Avropa İttifaqı yeni seçilmiş deputatlarla, Azərbaycan parlamenti ilə işləməyə hazırdır. Bu, əslində, seçkilərin tanınması deməkdir. O ki qaldı ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun rəyinə, bu dəfə görünür ki, ciddi hadisə baş vermədiyi üçün onlar da məcbur olub öz məruzəsini müəyyən dərəcədə balanslaşdırılmış formada təqdim etsinlər. Halbuki, biz çoxdan bilirik ki, onların məruzələri seçkilərdən əvvəl yazılır və harada yazılır, onu da biz bilirik. Bir də ki, ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun son dövrdəki bəyanatları və bəzi ölkələrdə seçkilərə verilən qiymət bir daha onların nə dərəcədə qeyri-obyektiv, qərəzli olmasını göstərir və nümayiş etdirir ki, bu qurum siyasi sifariş icra edir. Son misal 2018-ci ildə Ermənistanda keçirilmiş parlament seçkiləri idi. Bildiyiniz kimi, bu seçkilər ovaxtkı hakim faşist respublikaçılar partiyası tərəfindən tam saxtalaşdırılmışdı, - mən bu partiyanı faşist adlandırıram, təkcə onların ideologiyasına, onların mahiyyətinə görə yox, eyni zamanda, onların embleminə baxmaq kifayətdir ki, hər kəs görsün, faşist Almaniyasının emblemi ilə onların emblemi fərqlənmir, - və Respublikaçılar partiyasının özünə 50 faizdən çox səs yazdırdığı bu saxtalaşdırılmış seçkilərə ATƏT Demokratik Təsisatlar və İnsan Haqları Bürosu müsbət rəy vermişdi. Bir sözlə, bu saxtakarlığa şərik çıxmışdır və ondan sonrakı hadisələr hər kəs üçün bəllidir. Ondan sonra bu qanunsuz və korrupsioner rejim devrildi, onları guya Ermənistan parlamentində təmsil edən deputatlar təslim oldu, əllərini qaldırdılar, boyunlarını büküdülər və kənara çəkildilər. Yeni parlament seçkiləri elan edildi və yeni parlament seçkilərində respublikaçıların faşist partiyası heç parlamentə girə bilmədi. Yəni, bu, nəyi göstərir? Onu göstərir ki, 2 və ya 3 ay ondan əvvəl saxtalaşdırılmış seçkilərin nəticələri göz qabağındadır və bu nəticələrə, bu saxtakarlığa ATƏT Demokratik Təsisatlar və İnsan Haqları Bürosu öz müsbət rəyini vermişdi. Yəni, sadəcə olaraq, bunu misal kimi gətirməklə bir daha demək istəyirəm ki, bu qurumun rəyi bizim üçün tamamilə əhəmiyyətsizdir. Çünki bu rəy yenə də siyasi sifariş əsasında yazılır və bu, elə bil ki, bəzi dövlətlərin aparıcı dairələrinin bir təzyiq üsuludur.






Bir məsələni - müşahidəçiləri də qeyd etmək istərdim. Bir məsələ də məni, sözün düzü, təəccübləndirdi. Deyə bilərəm ki, biz müşahidəçi qismində dəvət etdiyimiz bütün təşkilatları bu seçkilərdə görmüşük. Ancaq Avropa Parlamentinə biz dəvət göndərməmişik, çünki birincisi, biz bu qurumun üzvü deyilik, ikincisi, buna lüzum görmürük, təxminən eyni səbəblərə görə. Çünki Azərbaycana qarşı ədalətsiz qətnamələrin qəbul olunması sahəsində Avropa Parlamenti birincilik əldə edib. Onların da qətnamələri bizim üçün tamamilə əhəmiyyətsizdir. Ancaq bildirməliyəm ki, belə meyillər bizə qarşı bu gün də müşahidə olunur.

Beləliklə, biz bu təşkilatı dəvət etmirik. Onlar isə bəyanat yayırlar ki, bu seçkiləri müşahidə etməkdən imtina edirlər. Bu, ən yumşaq sözlə desəm, siyasi saxtakarlıqdır. Çünki biz sizi dəvət etmirik, biz sizi burada görmək istəmirik, biz sizə inanmırıq. Belə olan halda gəlib deyəsən ki, biz imtina edirik, bu, gülməlidir və təəccüblüdür.

Bir sözlə, seçkilər bir daha bizim siyasi xəttimizin xalq tərəfindən yüksək qiymətə layiq olduğunu göstərdi. Hesab edirəm ki, seçkilərdən sonrakı proseslər müsbət istiqamətdə inkişaf edəcək. Altıncı çağırış Milli Məclis çoxpartiyalı məclisdir. Bu, çox müsbət əlamətdir. Hesab edirəm ki, siyasi sistemin təkmilləşdirilməsi işində Milli Məclisin çox böyük rolu olacaqdır və olmalıdır. Bütün siyasi qüvvələr seçkilərdə iştirak etmişlər. Sadəcə olaraq, özünü müxalifət adlandıran marginal qruplaşma seçkiləri sanki boykot etmişdir. Bu da gülməlidir. Çünki Azərbaycan xalqı bu rüsvayçı qurumu çoxdan boykot edib və 27 ildir ki, onlar tarixin zibilxanasındadırlar. Belə olan halda boykot elan etmək həm gülməlidir, həm də təəccüblüdür.

Beləliklə, bütün siyasi qüvvələrin iştirak etdiyi seçkilər nəticəsində çoxpartiyalı parlament formalaşıb və hesab edirəm ki, bu, demokratiyanın inkişafında önəmli addımdır. Bildiyiniz kimi, Yeni Azərbaycan Partiyası yerlərin əksəriyyətini qazanıb. Təbii ki, Yeni Azərbaycan Partiyasının Milli Məclisdə sözü kifayət qədər qiymətlidir və təsirlidir. Yeni Azərbaycan Partiyasını təmsil edən deputatlar bu gün səhər mənim tapşırığımla yığışmışlar və önəmli qərarlar qəbul etmişlər. Mənim tövsiyəm o olmuşdur ki, partiyaların nümayəndələri altıncı çağırış Milli Məclisin rəhbərliyində və komitələrin rəhbərliyində təmsil olunsunlar. Bugünə qədər belə bir hal olmamışdır. Keçən çağırış Milli Məclisin komitələrinin rəhbərliyində, parlamentin rəhbərliyində müxalifət nümayəndələri təmsil olunmurdu. Ancaq mən hesab edirəm ki, Azərbaycanda siyasi sistemi möhkəmləndirmək, siyasi münasibətləri sağlam zəmində gücləndirmək üçün buna ehtiyac var. Əlbəttə, hesab edirəm ki, Yeni Azərbaycan Partiyası ümumi maraqlar naminə bu sahədə də çox düzgün addım atır.

Deyə bilərəm ki, həm altıncı çağırış Milli Məclis bu sahədə, əlbəttə, öz sözünü deyəcək, eyni zamanda, Prezident Administrasiyasının nümayəndələri son vaxtlar, demək olar ki, bütün siyasi qüvvələrin rəhbərləri ilə görüşlər keçirir. Mənə bu görüşlər haqqında müntəzəm olaraq məruzə edilir. Bütövlükdə ilkin rəy müsbətdir. Hesab edirəm ki, indiki genişmiqyaslı islahatlar dövründə siyasi islahatlar mütləq aparılmalıdır. Siyasi islahatlar partiyalararası geniş dialoq aparılmadan həyata keçirilə bilməz. Bir partiya - hakim partiya təkbaşına siyasi dialoq apara bilməz. Çünki dialoq üçün tərəf-müqabillər lazımdır və ilkin təəssürat müsbətdir. Bu təşəbbüs heç bir şərt qoymadan həyata keçirilir. Ancaq yenə də marginallaşmış və bütün dayaqlarını tam itirmiş dərnək tipli qruplaşma bu görüşdən imtina etdi. İmtina edib, indi özü bilər. Hər halda, uduzan biz olmayacağıq. Azərbaycanın yeni siyasi konfiqurasiyası formalaşır. Hesab edirəm ki, qanunvericilik sahəsində də siyasi sistemin təkmilləşdirilməsi üçün Milli Məclis tərəfindən lazımi addımlar atılacaq və Azərbaycanda çoxpartiyalı sistem daha da möhkəm əsaslar üzərində qurulacaq. Hazırda siyasi partiyanı yaratmaq üçün heç bir ciddi meyar tələb olunmur. Hesab edirəm ki, bu praktikaya son qoyulmalıdır. Əgər biz, doğrudan da, istəyirik ki, Azərbaycanda çoxpartiyalı sistem inkişaf etsin, - biz bunu istəyirik və iqtidar partiyası kimi bunu təqdim edirik, - onda, əlbəttə, siyasi partiyaların fəaliyyəti üçün lazım olan bütün alətlər spektri mövcud olmalıdır. Bu, hesab edirəm ki, Milli Məclisin gündəliyində duran məsələlərdən biri olacaqdır.

Bir sözlə, həm seçkilər, həm də seçkilərdən sonra keçən dövr, iqtidar tərəfindən siyasi partiyalara yönəlmiş addımlar - bütün bunlar bizim mövcud siyasətimizin yeni mərhələsini əks etdirir. Bu, bizim islahatçı kursumuzu əks etdirir. Bildiyiniz kimi, islahatların yeni mərhələsi 2018-ci ilin prezident seçkilərindən sonra başlamışdır. Bu islahatları mən andiçmə mərasimində, bax, bu salonda bəyan etmişdim. Biz onları ardıcıl olaraq icra edirik və bu, həyatda öz əksini tapır. Bir də onu göstərir ki, həmişə olduğu kimi, bizim sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur.

İslahatlar həm konseptual xarakter, həm də struktur xarakteri daşıyır. Kadr islahatları aparılır. Son müddət ərzində Prezident Administrasiyası, demək olar ki, tam yeni tərkibdə formalaşmışdır və yeni şöbələr yaradılmışdır. Bu şöbələrin yaradılması, eyni zamanda, dediyim sözləri bir daha təsdiqləyir, bizim niyyətimizi təsdiqləyir. Nazirlər Kabineti yeni tərkibdə formalaşmışdır. Hazırda Nazirlər Kabineti daha operativ və çevik fəaliyyət göstərir. Nazirliklərdə kadr islahatları aparılmışdır, yerli icra orqanlarında bu islahatlar aparılır və aparılacaq. Bəzi yerli icra orqanlarında müşahidə olunan biabırçı mənzərə bütün xalqımızı hiddətləndirir. Bundan sonra da təmizləmə işləri aparılacaqdır, həm mərkəzi, həm də yerli icra orqanlarında, bütün dövlət qurumlarında. Mən demişəm, bir daha demək istəyirəm ki, əgər kimsə dövlət işində işləmək istəyirsə, onun niyyəti də, əməlləri də təmiz olmalıdır. Əgər hansısa bir adam özündə bu xüsusiyyətləri görmürsə, o, dövlət işindən getsin, sabah bədbəxt olmasın.

Ona görə islahatların dərinləşməsi, əlbəttə ki, parlamentdən yan keçə bilməzdi. Hesab edirəm ki, yeni tərkibdə formalaşmış Milli Məclis islahatlara yeni təkan verəcəkdir. Deputatlar qarşısında böyük vəzifələr durur, ilk növbədə, qanunvericilik sahəsində. Çünki parlamentin əsas işi qanunvericilikdir. Mənim tövsiyəm ondan ibarətdir ki, nəinki kəmiyyətə, daha çox keyfiyyətə fikir verilsin. Çünki mövcud olan qanunların təkmilləşdirilməsinə baxmaq, onları təftiş etmək lazımdır. İcra strukturlarına mənim tərəfimdən göstəriş verilmişdir ki, qəbul edilmiş qanunların icrası nə yerdədir. Biz bir çox gözəl qanunlar qəbul edirik, eyni zamanda, Prezident tərəfindən bir çox önəmli sərəncamlar imzalanır, ancaq onların icrasına nəzarət lazımi səviyyədə deyil. Ona görə Prezident Administrasiyasında xüsusi şöbə yaradıldı. Hesab edirəm ki, Milli Məclis, deputatlar da bu işlərlə məşğul olmalıdırlar. Baxın, görün, qəbul olunmuş qanunlar icra edilir, yoxsa edilmir, bu qanunları pozurlar, yoxsa pozmurlar. Əgər belə hallar aşkarlanarsa, onda əlbəttə ki, ciddi cəza tədbirləri görülməlidir.

Ona görə hesab edirəm ki, bütövlükdə, - əlbəttə, bu, vaxt aparacaq, amma hər halda bunu etmək lazımdır, - biz qanunvericilik bazamızı təftiş etməliyik. Əgər lazım olarsa, onları qarşımızda duran mövcud hədəflərlə uzlaşdırmalıyıq. Çünki həyat yerində durmur, yeni çağırışlar, yeni problemlər üzə çıxır. Gözlənilmədən elə hadisələr baş verir ki, bütün dünya çaş-baş qalır. Ona görə bu qanunlar doqma deyil, onlara, əlbəttə ki, baxmaq lazımdır. Yeni qəbul ediləcək qanunların əsas mahiyyəti islahatları dərinləşdirməkdir. Ona görə qeyd etdiyim kimi, siyasi sistemin formalaşdırılması və gücləndirilməsi üçün qanunvericilik təşəbbüsləri, əlbəttə ki, lazım olacaq, iqtisadi islahatlarımızın dərinləşməsi işinə töhfə verən qanunlar qəbul edilməlidir.

Hesab edirəm ki, bizim milli dəyərlərimizlə, milli ənənəvi dəyərlərimizin qorunması ilə bağlı qanunvericilik bazası daha da geniş olmalıdır.

İnformasiya mühafizəsi ilə bağlı. Çünki biz informasiya dövründə yaşayırıq və saxta xəbərlər, yəni, “feyk nyus” adlandırılan xəbərlər əfsuslar olsun ki, geniş vüsət alır və istənilən yalan xəbər çox böyük fəsadlara gətirib çıxara bilər. Biz Azərbaycan olaraq bu şər-böhtan kampaniyaları ilə çoxdan üz-üzəyik. Bunun əsas səbəbi bizim müstəqil siyasətimizdir, heç kimin qarşısında baş əyməməyimizdir. Amma bunun fəsadları odur ki, bizə qarşı informasiya kampaniyası aparılır - qara piar kampaniyası, yalan, böhtan, uydurma, iftira üzərində qurulmuş kampaniya. Ona görə informasiya mühafizəsi ilə, informasiya təhlükəsizliyi ilə əlaqədar mütləq qanunvericilikdə yeni yanaşmalar, yeni fikirlər olmalıdır.

Sosial siyasətlə bağlı. Azərbaycan sosial dövlətdir və bizim atdığımız bütün addımlar bunu təsdiqləyir. Təkcə keçən il mənim təşəbbüsümlə reallaşan sosialyönümlü paket 4,2 milyon insanı əhatə edir. Minimum əməkhaqlarının, minimum pensiyaların müntəzəm olaraq qaldırılması, əlbəttə ki, böyük iqtisadi mənbə tələb edir və bunu da biz yaradırıq. Ölkəmizdə şəffaflıqla bağlı gedən proseslər, kölgə iqtisadiyyatına qarşı olan proseslər bizim iqtisadi imkanlarımızı gücləndirir, vergi bazasını genişləndirir, kölgə iqtisadiyyatına qarşı çox ciddi zərbə olur. Ona görə qanunvericilikdə bütün bu məsələlər, əlbəttə ki, diqqət mərkəzində olmalıdır.

Gənclər siyasəti ilə bağlı. Azərbaycan əhalisinin mütləq əksəriyyəti gənclərdir və Azərbaycanda demoqrafik mənzərə çox müsbətdir. Ona görə gənclərin asudə vaxtlarının səmərəli təşkili, onların fəal işə cəlb edilməsi, - misal üçün, könüllülər hərəkatı çərçivəsində, - vətənpərvərlik ruhunda tərbiyə edilməsi istiqamətində, əlbəttə ki, qanunvericilikdə addımlar atılmalıdır. Gənclər milli ruhda tərbiyə almalıdırlar, xarici təsir altına düşməməlidirlər, xüsusilə indiki internet dövründə ki, istənilən yalan tezliklə yayılır və sonra elə bil həqiqət kimi təqdim olunur. Bu da bizə qarşı aparılan qeyri-təmiz siyasətin bir hissəsidir. Çünki sirr deyil ki, Azərbaycanda hazırda ictimai-siyasi vəziyyət çox sabitdir. Ölkəmizdə ictimai-siyasi sabitliyə təhlükə törədə biləcək heç bir amil mövcud deyil. Ona görə bu amilləri anti-Azərbaycan qüvvələr ölkəmizin xaricində yaratmaq istəyirlər. Burada özünü müxalifət adlandıran və tamamilə rüsvayçı halda guya fəaliyyətini davam etdirən qruplaşmadan artıq onların əli üzülüb, onlara heç inam da qalmayıb. Ona görə yeni beşinci kolonun yaradılması istiqamətində iş aparılır. Çünki indiki beşinci kolon öz sahiblərinin etimadını doğrultmur. Azərbaycanda çevriliş edə bilməyib, dırnaqarası inqilab edə bilməyib, xalqın dəstəyini qazana bilməyib, sadəcə, onlara müntəzəm olaraq verilən pulları mənimsəyib və beləliklə, öz havadarlarını pis günə qoyubdur. Odur ki, yeni beşinci kolon axtarışı gedir. Mən bütün siyasi qüvvələri bu məsələ ilə bağlı çox ciddi xəbərdar etmək istəyirəm ki, bu yol xəyanət yoludur, bu yola gedən xalq, dövlət qarşısında xəyanət edəcək. Ona görə bizim bütün daxili problemlərimiz Azərbaycanın daxilində həll olunmalıdır. Biz, öz daxili problemlərimizi, siyasi çəkişmələri xaricə ixrac etməməliyik. Birincisi, bunun heç bir əhəmiyyəti yoxdur. Çünki bu gün dünyada elə bir qüvvə yoxdur ki, hansısa qərarı bizə aşılasın, yaxud da bizə nəyisə diktə edə bilsin. Belə qüvvə yoxdur və nə qədər ki, mən prezidentəm, belə qüvvə olmayacaqdır. Ona görə bu, tamamilə mənasızdır. Azərbaycanı hansısa təzyiq altına salmaq cəhdləri, yaxud da ki, sanksiyalarla hədələmək - bütün bunların heç bir əhəmiyyəti yoxdur. Bu, iqtidara qarşı deyil, bu, dövlətə qarşı edilən cinayətdir və bunu heç kim unutmasın.

Son illər ərzində biz müxtəlif təzyiqlərlə, müxtəlif kampaniyalarla üzləşmişik, ancaq öz yolumuzdan dönməmişik. Ölkəmizin, xalqımızın əmin-amanlığı, təhlükəsizlik, sabitlik, xalqımızın rifahı, müstəqil siyasətimiz bizim üçün hər şeydən üstündür. Biz beynəlxalq təşkilatlarla əməkdaşlıq edirik, bəzi təşkilatların üzvüyük, o təşkilatlara könüllü şəkildə daxil olmuşuq, könüllü şəkildə də çıxa bilərik - əgər nə vaxtsa bu təşkilatlarda bizi nəsə qane etməsə, yaxud da bizə qarşı olan qərəzli münasibət o həddə çatsın ki, artıq bizim hövsələmiz tükənsin. Ona görə hesab edirəm ki, bütün siyasi qurumların nümayəndələri bu sahədə də çox diqqətli olmalıdırlar.

O ki qaldı gənc nəslə, yenə də deyirəm, bizim gənc nəslimiz vətənpərvərdir, vətənə bağlıdır, milli köklərə bağlıdır, elə də olmalıdır. Bizim gənclər, mən bunu dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, milli ruhda tərbiyə almalıdırlar. Eyni zamanda, gənclərin mənəvi və fiziki hazırlığı üçün əlavə tədbirlər həyata keçirilməlidir. Hesab edirəm ki, Milli Məclis və onun müvafiq komitələri bu işlə məşğul olub konkret təkliflər irəli sürəcəklər.

Əlbəttə, deputatlara tövsiyəm odur ki, onlar seçildikləri dairələrdə fəal olsunlar, seçicilərlə daim təmasda olsunlar. İndi sirr deyil, əvvəlki dövrlərdə bəzi deputatlar seçicilərdən bir qədər, yaxud da ki, tamamilə uzaqlaşmışdılar. Heç öz dairələrinə baş çəkmirdilər, problemlərlə maraqlanmırdılar. Öz şəxsi problemlərini ortaya qoyurdular. Buna da son qoyulmalıdır. Əvvəllər belə hallar kifayət qədər çox olubdur. Öz qohumlarını vəzifələrə yerləşdirmək, hansısa torpaq sahələri əldə etmək, hansısa biznesə dəstək göstərmək və sair və ilaxır. Mən dərinə getmək istəmirəm. Ona görə yeni tərkibdə formalaşan Milli Məclis mənəvi cəhətdən qüsursuz olmalıdır. Çünki bizim əsas islahatlarımızın mahiyyəti də budur. Əgər bizim vətəndaşlar yaxından baxsalar görərlər ki, siyasi sahədə, struktur islahatları, kadr islahatları, vəzifələrə gətirilən kadrlar təmizdirlər. Yəni, onların arxasında heç bir, necə deyərlər, mənfi iz yoxdur. Milli Məclis də, onun deputatları da bu meyarlara cavab verməlidirlər. Sabah siz xalq qarşısında cavab verməli olacaqsınız. Ona görə siz seçildiyiniz dairələrin problemləri ilə daim maraqlanmalısınız, seçicilərlə görüşməlisiniz, dairələrdə olmalısınız. Eyni zamanda, mövcud olan problemləri də üzə çıxarmalısınız. Bunları icra orqanlarının qarşısına çıxarmalısınız, mərkəzi icra orqanlarının diqqətinə çatdırmalısınız. Hesab edirəm ki, yeni tərkibdə formalaşan Milli Məclis bu sahədə də uğurlu fəaliyyət göstərəcək.

Beynəlxalq fəaliyyətlə bağlı demək istərdim ki, bizim deputatlar bir neçə beynəlxalq təşkilatda təmsil olunurlar. Əlbəttə ki, orada əvvəlki illərdə də fəallıq kifayət qədər yüksək idi. İndiki dövrdə daha da yüksək olmalıdır. Çünki biz Azərbaycan həqiqətlərini çatdırmalıyıq. Xüsusilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tarixi həqiqətləri çatdırmalıyıq. Tarixi ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq da bizim mövqeyimizi dəstəkləyir. Ona görə bizim arqumentlərə qarşı Ermənistan tərəfi heç bir ciddi arqument qoya bilmir, ancaq yalan, böhtan, tarixi saxtakarlıq və mifologiya. Bu, əslində, onların xislətidir. Onlar geniş şəbəkə çərçivəsində bəzi siyasətçiləri satın alırlar. Bu da heç kimə sirr deyil. Belə olan halda onların tarixi saxtakarlığına elə bil ki, bəraət qazandırılır. Ona görə bizim deputatlar bütün beynəlxalq təşkilatlarda tarixi həqiqətləri ortaya qoymalıdırlar. Mən Münxendə Kürəkçay sülh müqaviləsi haqqında deyəndən sonra bilirəm ki, Ermənistanda indi bu müqaviləni əzbərləyirlər. Orada açıq-aydın göstərilir ki, bu müqaviləni kim bağlayıb, nə vaxt bağlayıb və erməni xalqı haqqında orada ümumiyyətlə, söhbət belə getmir. Bir tərəfdən Rusiya generalı Sisianov, bir tərəfdən İbrahim xan, özü də rusca yazılmışdır İbrahim xan “Karabaxski Şuşinski”. Bax, budur real tarix. XX əsrin əvvəllərində Rus imperiyası tərəfindən dərc edilmiş xəritələrə baxmaq kifayətdir görəsən ki, orada indiki Ermənistan ərazisində toponimlərin mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. Bunu demək lazımdır, o xəritələri gətirmək lazımdır. İşğal edilmiş indiki torpaqlarımızın xəritələrini gətirmək lazımdır.

*Ardı 3-cü səh.*

# Azərbaycan daim müstəqil, prinsipial və milli maraqlara uyğun siyasət yürüdür

## Prezident İlham Əliyev: “Əminəm ki, altıncı çağırış Milli Məclis ölkəmizdə aparılan genişmiqyaslı və çoxşaxəli islahatlara, onların dərinləşməsi işinə öz töhfəsini verəcəkdir”

*Əvvəli 2-ci səh.*

Bütün beynəlxalq təşkilatları, orada fəaliyyət göstərən nümayəndələri tanış etmək lazımdır. Eyni zamanda, müsəlman ölkələrinin parlamentlərinin nümayəndələri ilə görüşlər əsnasında mütləq ermənilər tərəfindən dağıdılmış məscidlərimizin şəkilləri göstərilməlidir. Mən bunu edirəm. Bir çox müsəlman ölkələrinin liderlərinə bu şəkilləri göstərirəm. Əgər bunu geniş siyasi elita görsə, onda əlbəttə ki, o ölkələrin rəhbərləri üçün Ermənistan rəhbərləri ilə ağız-ağıza öpüşmək ayıb olar. Biz bunu deməliyik, deməliyik ki, təkcə bizə qarşı yox, bütün müsəlman aləminə qarşı bu faşist rejim müharibə elan edib, bizim məscidlərimiz, tarixi abidələrimiz dağıdılıb. Amma biz bu məlumatı kifayət qədər çatdıra bilmirik. Ona görə bu, xüsusi bir istiqamət olmalıdır.

Əlbəttə ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı olan bütün təşkilatlarda biz fəal olmalıyıq, hücum diplomatiyası aparmalıyıq, çünki haqq-ədalət bizim tərəfimizdədir. Xocalı soyqırımı haqqında. Artıq 10-dan çox ölkənin parlamenti bunu rəsmən tanıyıb. Bu proses davam etdirilməlidir və deputatlar bu prosesdə fəal olmalıdırlar. Çünki bu qərarların qəbul edilməsində dövlət qurumları böyük dərəcədə əsas rol oynayırlar. Ona görə parlament fəal olmalıdır. Bu, artıq beynəlxalq münasibətlər çərçivəsində qəbul edilmiş faktdır. Ermənistan tərəfinin çox yersiz, yalançı, cılız cəhdləri Münxen Təhlükəsizlik Konfransında özünü göstərdi və bir daha onları ifşa etdi. Çünki onların bütün tarixi saxtakarlıqdır. Onlar tarixi Azərbaycan torpağında dövlət qurublar, əfsuslar olsun ki, bizim Azərbaycan Xalq Cümhuriyyətinin köməyi ilə. İndi bütün tarixi adlarımızı dəyişdirib bizim tariximizi, abidələrimizi özününküləşdirmək istəyirlər. Ona görə deputatlar daim bu məsələni qaldırmalıdırlar.

Bütövlükdə beynəlxalq təşkilatlar çərçivəsində bizim fəaliyyətimiz daha məqsədyönlü olmalıdır. Orada bizi təmsil edən deputatlar fəal olmalıdırlar, turist kimi getməməlidirlər, sonra hesabat verməlidirlər ki, nə iş görmüsən, kiminlə görüşmüsən, hansı məsələni qaldırmısan. Yoxsa bəzi hallarda bu, turist səfərlərini xatırladır. Getdik, görüşdük, oturduq, danışdıq, yedik, qayıtdıq. Özü də bəzi səfərlər, ümumiyyətlə, qəbuledilməzdir. Mən bu gün bu haqda çox danışmaq istəmirəm, amma bilirəm nə baş verir, hansı hadisələr baş verir. Ona görə biz beynəlxalq fəaliyyətimizin səmərəliliyini artırmalıyıq. O təşkilatlarda ki, bizə qarşı əsassız yanaşma var, bizə qarşı ittihamlar irəli sürülür, biz orada mübariz olmalıyıq. Yəni, onların qarşısında yaxşı olmaq yox, dövlət, xalq qarşısında yaxşı olmaq lazımdır. Hansısa məsələni kəskinləşdirmək istəmirəm bəhanəsi ilə kənara çəkilmək yox, əksinə, öz sözünü demək lazımdır. Qərəzli yanaşmanı ifşa etmək lazımdır. Necə ki, mən daim bunu edirəm və kifayət qədər faktlar var. Bunu demək üçün siyasətçi olmaq lazım deyil. Adi vətəndaş bunu görür televiziyada. Baxın, bizə demokratiyadan dərs vermək istəyənlər hansı cinayətlər törədirlər. Avropanın dırnaqarası demokratiya beşiyi sayılan ölkələrdə xalqın gözü qarşısında, dünyanın gözü qarşısında dinc nümayişçiləri vururlar, əzirlər, gözlərini çıxarırlar, öldürürlər, həbs edirlər. Jurnalistləri əsassız ittihamlarla həbs edirlər, çürüdürlər onları. Göz qabağındadır, dinc nümayişçiləri itlərlə, atlarla dağıdırlar. Bir ölkədə yox, iki ölkədə yox, demək olar ki, bu, indi bizi tənqid etmək istəyən məkanda kütləvi hal alıbdır. Müsəlman miqrantlara qarşı baxın, necə münasibət göstərilir. Onları XXI əsrdə itlərlə əzirlər, qəfəsə salırlar. Sonra isə qəfəsə yemək parçaları atırlar, heyvan kimi. Budurmu münasibət?!

İndi də bütün vasitələrdən istifadə edib onları əzmək fikrindədirlər. Bəs o miqrantlar haradan yarandı? Nə üçün onlar yarandı? Nəyə görə öz ölkələrini tərk etdilər? Kim onların ölkələrinə basqın etdi? Kim o ölkələri məhv etdi? Kim sabitliyi pozdu? Kim milyonlarla qaçqının yaranmasına səbəbkar oldu? Ona görə kim bunu edibsə, qoy, onun acısını da çəksin. Nə üçün Türkiyə, bizim qardaş ölkəmiz 4 milyon qaçqını qəbul etməlidir, yedirməlidir, içirməlidir, milyardlarla pul xərcləməlidir? Bunları Türkiyəmi didərgin salıb? Yox. Onları didərgin salanlar gəlib onlara sahib çıxsınlar.

Bütün bunları demək lazımdır. Mən bu gün bu kürsüdən bunu deyirəm, açıq, heç kimdən çəkinmədən. Çünki mən haqlıyam və həqiqətə qarşı heç kim heç nə deyə bilməz. Əlbəttə, bax, görərsiniz, bu sözlərdən bir neçə gündən sonra yenə çirkin məqalələr çıxacaq, yenə hansısa bir qondarma təşkilat nəsə bəyanat verəcək ki, Azərbaycanda o, pisdir, bu, pisdir.

Eybi yoxdur, qoy desinlər. Amma biz bu həqiqətləri deməsək, sabah bu, bizim başımızda sınacaq. Ona görə bunu deməliyik və siz də deməlisiniz. Mən bütün deputatlara deyirəm, heç bir sövdələşməyə getmək olmaz. Beynəlxalq təşkilatlarla işləmək lazımdır, biz də işləyirik, ancaq bizim maraqlarımız var və kifayət qədər arqumentlərimiz var. Ona görə mən sizi bu mübarizəyə çağırıram - həm Avropa Şurasında, həm ATƏT Parlament Assambleyasında, həm də bütün başqa təşkilatlarda. Beləliklə, hesab edirəm ki, bu istiqamətdə atılacaq addımlar bizim ölkəmizin mövqeyini daha da gücləndirəcək.

Əlbəttə ki, parlamentin iqtisadi sahədə görülən işlərlə bağlı rolu artmalıdır. Mən hesab edirəm ki, hökumət üzvləri də daha sıx təmasda olmalıdırlar, parlamentdə daim ünsiyyətdə olmalıdırlar, onlara suallar verilməlidir, onlar gördükləri işlər haqqında məruzə etməlidirlər, çıxış etməlidirlər və bunu da biz sistemə salmalıyıq. Çünki bu, həm hökumət üzvlərinin məsuliyyətini artıracaq, həm parlamentin rolu artacaq, - mən istəyirəm ki, Azərbaycanda parlamentin rolu və təsir imkanları artsın, - həm də ümumi işimizə müsbət təsir göstərəcək. Çünki məsuliyyət ən vacib məsələlərdən biridir. Məsuliyyət və nəzarət. Harada ki, bu, yoxdur, heç bir iş getməyəcək. Əksinə, çox mənfi mənzərə ilə üzləşə bilərik. Ona görə bu da bir nəzarət mexanizmi olmalıdır.

Mən indi vətəndaşlara ictimai nəzarət haqqında daim müraciət edirəm ki, bu proses yavaş gedir, hələ öyrəşməmişik. Hələ hesab edirik ki, bəli, orada hansısa icra başçısı bir ağadır, xandır, istədiyini edə bilər, insanları qul kimi işlədə bilər, insanlar da buna dözməlidirlər. Deyirəm ki, verin bu məlumatı, göndərin məktubları. İndi Prezident Administrasiyasında tam başqa bir vəziyyət var. O məktubları əvvəllər bəziləri gizlədirdilər. Əvvəllər kimdən ki, şikayət edirdilər, ona göndərirdilər. O da sonra həmin şikayətçini əzirdi orada. İndi buna son qoyulur. Düzdür, vaxt lazımdır, amma bu, artıq meyildir. Ona görə camaat da ictimai nəzarət işində daha fəal olmalıdır. Bir çox məsələlər haqqında məlumatı əvvəllər mən mətbuatdan alırdım, mənə çatmırdı, gizlədirdilər, malalayırdılar və demək olar ki, bu, böyük çətinliklər yaradırdı. Ona görə hesab edirəm ki, hökumət üzvləri ilə daim təmas olmalıdır, Prezident Administrasiyasında parlamentlə iş üzrə xüsusi şöbə yaradılıb. Bu, əlbəttə, bir daha onu göstərir ki, biz parlamentin işinə böyük əhəmiyyət veririk.

O ki qaldı iqtisadi islahatlara, onlar da göz qabağındadır. Təkcə şəffaflıq hesabına keçən il biz büdcəyə proqnozdan 1 milyard manat çox vəsait daxil etdik və bu proses davam etdirilir. Bu ilin iki ayında vergi orqanları proqnozdan əlavə 181 milyon manat, gömrük orqanları isə 71 milyon manat çox vəsait yığıblar, məhz şəffaflığa görə, məhz kölgə iqtisadiyyatına qarşı mübarizəyə görə. Kölgə iqtisadiyyatına qarşı mübarizə öz nəticəsini verməkdədir və getdikcə kölgə iqtisadiyyatının əhatə dairəsi daralacaq. Əlbəttə, bunu bir gündə etmək mümkün deyil, bu, bir prosesdir, amma indi bütün hökumət qurumları səfərbər edilib və bu işdə fəaldırlar. İki ayın iqtisadi göstəriciləri də çox müsbətdir. Ümumi daxili məhsul 2,8 faiz artıb, qeyri-neft sektorunda isə yanvar-fevral aylarında 6,7 faiz artıb, biz əsas göstərici bunu sayırıq. Qeyri-neft sənaye istehsalı sahəsində artım 21,7 faizdir. Bu da son illər qeyri-neft sektorunun inkişafına görədir. Çünki neft sektorunda bu artım yoxdur, əksinə, hasilat düşür, qiymətlər də dünən tamamilə çökdü. Deməli, əhalinin gəlirləri iki ayda 9 faiz artıb, inflyasiya cəmi 2,8 faizdir. Bu tendensiya əminəm ki, gedəcək. Düzdür, indi koronavirusla bağlı dünyada gedən ajiotaj istər-istəməz bizə də təsir edir. Ancaq hesab edirəm ki, biz bütün səyləri ortaya qoyub bu vəziyyətdən də şərəflə çıxacağıq. Halbuki indi bir çox ölkələr bundan ciddi əziyyət çəkir. Azərbaycanda isə operativ qərargah yaradıldı və bu gün səhər mənə verilən məlumata görə, artıq xəstələnmiş vətəndaşların sağalması prosesi də uğurla gedir. Karantində olanlar da artıq karantin müddətini başa çatdırırlar və evlərə buraxılırlar. Yəni, vəziyyətə tam nəzarət edilir. Sərhədlərdə də vəziyyət nəzarət altındadır və yük maşınlarının Azərbaycan ərazisindən keçməsi üçün polis müşayiəti ilə xüsusi kolonlar formalaşdırılır. Yolda sürücülərə yemək verilir ki, onlar maşınlarından tez-tez çıxmasınlar. Yəni, bütün lazımi tədbirlər görülür.



Əlbəttə ki, bütövlükdə parlamentin sosial sahə ilə bağlı fəaliyyəti çox fəal olmalıdır. Bu sahə də bizim üçün prioritetdir, həmişə olduğu kimi. Qeyd etdiyim kimi, keçən il önəmli addımlar atıldı, bu il də davam etdiriləcək. Xüsusilə az-təminatlı ailələrin dövlət tərəfindən dəstəklənməsi işinə əlavə vəsait nəzərdə tutulur. Ünvanlı sosial yardımla əhatə olunan ailələrin sayı artmalıdır, mənim göstərişimlə orada müvafiq metodologiyada düzəlişlər edilir. Çünki əvvəlki metodologiya həqiqəti əks etdirmirdi və hər ailəyə verilən məbləğ də artmaqdadır. Məcburi köçkünlərə bu il 7 min mənzil veriləcək, bu, rekord göstəricidir. Şəhid ailələrinə 1500 mənzil veriləcək, bu da rekord göstəricidir. Keçən il 934 mənzil verilmişdi.

Dinlərarası, mədəniyyətlərarası dialoqun inkişafı ilə bağlı bizim parlamentin də rolu çox təsirli ola bilər. Beynəlxalq tədbirlərdə və Azərbaycanda keçirilən bir çox tədbirlərdə bizim deputatlar fəal iştirak etməlidirlər. Biz öz dinimizə hörmət edirik. Dinimiz bizim üçün müqəddəsdir, eyni zamanda, başqalarının dinlərinə də hörmətlə yanaşmalıyıq . Keçən ilin sonlarında Bakıda keçirilmiş Dünya dini liderlərinin II Zirvə Görüşündə səslənən fikirlər onu göstərir ki, bu gün dünya miqyasında bəlkə də Azərbaycan qədər bu məsələ ilə ciddi məşğul olan və ciddi nəticələr hasil edən ikinci ölkə yoxdur. Həm müsəlman aləmi bizi dəstəkləyir, həm də İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanda İslam dininə olan münasibətə görə bizi örnək kimi göstərir. Həm Rusiya Pravoslav kilsəsinin patriarxı Kirill Azərbaycanda gedən dinlərarası proseslərə müsbət qiymət verir, həm də Roma Papası Fransisk. Mən onunla artıq 3 dəfə görüşmüşəm, bir dəfə Bakıda, iki dəfə Vatikanda. Onun da Azərbaycanda bu sahədə aparılan işlərə verdiyi qiymət çox yüksəkdir. Yəni, bunu mən demirəm. Bunlar aparıcı ənənəvi dünya dini liderlərinin sözləridir. Əlbəttə ki, bu istiqamətdə addımlar atılacaq.

Bununla bərabər, biz Azərbaycanı müasir, dünyəvi dövlət kimi gücləndirməliyik. Dünyəvilik prinsipləri daha geniş bərqərar olmalıdır. Radikalizmə qarşı mübarizə daha geniş aparılmalıdır. Parlamentin rolu burada vacibdir. Ancaq sözün düzü, xatırlamıram ki, bu məsələ ilə bağlı əvvəlki dövrdə parlamentdə ciddi söhbət aparılsın. Biz aparmalıyıq. Heç bir bağlı mövzu olmamalıdır. Çünki bizim gələcəyimiz bundan asılıdır. Biz 20 il, 30 il, 50 il sonra hansı dövlətdə yaşamaq istəyirik. Biz bilirik və xalq da bilir. Amma bunu təmin etmək lazımdır. Əgər oturub nəyisə gözləyəcəyiksə, böyük problemlər yarana bilər. Ona görə biz bu sahədə də öz siyasətimizi təmin etməliyik, bizim siyasətimizin üstünlüyünü göstərməliyik və müqayisə etməliyik, çəkinmək lazım deyil. İstənilən tərəflə müqayisə etmək üçün kifayət qədər arqumentlərimiz var, təhlükəsizlik, əmin-amanlıq, inkişaf, sosial rifah, azadlıqlar. Ona görə parlament bu məsələlərlə ciddi məşğul olmalıdır və əminəm ki, olacaq.

Bu seçkilər bir daha göstərdi ki, bu gün Azərbaycan iqtidarı tərəfindən aparılan siyasi kursa alternativ yoxdur. Bunun da çox sadə səbəbləri var. Son illər ərzində ölkəmizdə müşahidə olunan inkişaf, əlbəttə ki, insanları inandırır. Azərbaycan xalqı əmin-amanlıq, sabitlik, təhlükəsizlik şəraitində yaşayır. Artıq 27 ilə yaxındır ki, biz sabitlik şəraitində yaşayırıq, görün, bizim ətrafımızda hansı proseslər baş vermişdir - müharibələr, qaçqınların axını, çevrilişlər, vətəndaş qarşıdurması, böhranlar. Ölkələr parçalandı, demək olar ki, bəzi ölkələrin coğrafi sərhədləri real vəziyyəti əks etdirmir, yəni, bu ölkələr, sadəcə olaraq, xəritələrdə öz suverenliyini və ərazi bütövlüyünü saxlayırlar. Əslində, çoxdan itiriblər, çoxdan bölünüblər tayfalara, təriqətlərə, müxtəlif bölgələrə. Bizim qonşuluğumuzda nə qədər acınacaqlı proseslər, inqilablar gedib. Hansı inqilab kimə xeyir gətirib? Ancaq ziyan, ancaq problemlər, ancaq qarşıdurma və bu qarşıdurmalar davam edir. İndi postsovet məkanına və Azərbaycanın vəziyyətinə baxın. Mən indi müqayisə edə bilmərəm, amma siz edə bilərsiniz. Deputatlar Prezidentin deyə bilmədiyi sözü deməlidir və əminəm ki, belə də olacaq.

Ona görə bu seçkilərin nəticələri görülmüş işlərin təzahürüdür. Çünki bu gün həm təhlükəsizlik, həm də sabitlik təmin edilir. Azərbaycan öz hərbi potensialını gücləndirib. 2016-2018-ci illərdə bizim hərbi qələbələrimiz hər bir Azərbaycan vətəndaşını fərəhləndirdi və bizim ordumuzun gücünü göstərdi. Təsadüfi deyil ki, bizim ordumuz dünyanın 50 ən güclü ordusu sırasındadır. Bizim beynəlxalq mövqelərimiz kifayət qədər möhkəmdir. Qoşulmama Hərəkatına üzv olmuşuq, ondan yeddi il keçmədi sədr seçildik, özü də 120 ölkənin dəstəyi ilə. Bilirsiniz ki, o ölkələr arasında ixtilaflar kifayət qədər kəskindir. İnanmıram ki, ikinci belə bir ölkə tapılsın ki, yekdil səslə bu təşkilata sədrlik etsin. BMT-dən sonra bu, ən böyük beynəlxalq təsisatdır. BMT-nin rəhbəri yoxdur, amma Qoşulmama Hərəkatının lideri var, bu da Azərbaycandır.

Biz keçən il Türk Şurasına sədrliyi öz üzərimizə götürmüşük və deyə bilərəm ki, türkdilli dövlətlərin əməkdaşlığı istiqamətində Azərbaycan çox önəmli rol oynayır. Bütün digər beynəlxalq təmaslarda biz Avropa İttifaqı ilə indi saziş üzərində işləyirik, Avropa İttifaqına üzv doqquz ölkə ilə strateji tərəfdaşlıq sənədlərimiz vardır. Bu da Avropa İttifaqına üzv ölkələrin üçdəbir hissəsidir. Qonşu ölkələrlə sağlam, işgüzar və dostluq əsasında qurulmuş münasibətlər var. Müsəlman aləmində böyük nüfuzumuz var. Budur, bizim beynəlxalq mövqelərimiz. Ona görə bizə hörmət edirlər, ona görə bizim sözümüz keçir və eyni zamanda, ona görə ki, bizim siyasətimiz birmənalıdır. Bizim siyasətimiz situativ deyil. Bizim siyasətimiz ədalətlidir və sözümüzlə əməlimiz arasında fərq yoxdur. Mən öz sözümü bütün auditoriyalarda deyirəm. Mənim üçün bir mövzu Azərbaycanda, bir mövzu xaricdə anlayışı yoxdur. Hər bir məsələ ilə bağlı mövqe var, mövqe olmalıdır və mən bu mövqeni müdafiə edirəm. Kimin xoşuna gəlir, gəlir, kimin xoşuna gəlmir, özü bilər. Bizi istəməyə bilərlər məhz bu hərəkətlərimizə görə, bu müstəqil siyasətimizə görə. Amma bizə hörmət edirlər. Bunu da mən dəfələrlə görmüşəm. Ona görə deputatlar da beynəlxalq təşkilatlarda elə fəaliyyət göstərməlidirlər ki, daim hörmət göstərilsin.

Son 16 il ərzində iqtisadi sahədə əldə edilmiş uğurların dünyada bərabəri yoxdur. Əgər varsa, desinlər, götürsünlər statistikaya baxsınlar, hansı ölkə 16 il ərzində öz iqtisadiyyatını 3,4 dəfə artıra bilib. Ondan sonra yoxsulluq, 50 faizə yaxın idi, indi 4,8 faizdir və daha da aşağı düşəcək. Çünki maaşlar, pensiyalar artır və artırılacaq, müavinətlər də həmçinin. Xarici borc ümumi daxili məhsulun 17 faizinə bərabərdir. Bu, çox aşağı göstəricidir. İnkişaf etmiş bəzi ölkələrdə bu, 100 faizdən çoxdur. Amma ondan daha önəmli məsələ odur ki, valyuta ehtiyatlarımız xarici borcumuzdan altı dəfə çoxdur. Yəni, istəsək, xarici borcumuzu bir ay ərzində sıfırlaya bilərik. Xarici borcu ödəmək üçün gərək bəzi ölkələrin valyuta ehtiyatları indikindən 50 dəfə artıq olsun.

Bu illər ərzində iqtisadi sahədə bu uğurlar əldə edilib, sosial sahədə maaşlar, pensiyalar on dəfədən çox artıb. Məcburi köçkünlərin, şəhid ailələrinin problemləri öz həllini tapır. Biz kosmik dövlətə çevrilmişik, üç peykimiz var. Dünya Astronavtika Konqresi 2022-ci ildə Bakıda keçiriləcək və bu haqqı biz gərgin mübarizədə qazanmışıq. Bu müsabiqədə 4 şəhər iştirak edirdi - Dehli, Rio-de-Janeyro, Sinqapur və Bakı. Biz bunu qazandıq. Nəyə görə? Çünki orada da bizə hörmət edirlər.

Mən belə faktları çox sadalaya bilərəm. Təkcə enerji siyasətimizə baxmaq kifayətdir ki, xalqımız, dövlətimiz və qitə üçün nələr etdiyimizi görək. Neft-qaz kəmərləri - indi “Cənub qaz dəhlizi” başa çatmaq üzrədir. Biz bunu çox çətin geosiyasi vəziyyətdə minimum itkilərlə etdik, demək olar ki, sıfır itkilərlə. Nəinki bunu etdik, hətta yeddi ölkə arasında uzunmüddətli beynəlxalq əməkdaşlıq formatı yaratdıq. Bu ölkələr artıq təbii dostlardır, müttəfiq olmasalar da, təbii dostlardır. Ona görə bu sahədə də bizim rolumuz danılmazdır və biz bu sahədə liderik.

Nəqliyyat sahəsində. Biz açıq dənizə çıxışı olmayan ölkəni nəqliyyat mərkəzinə çevirmişik. Belə faktlar çoxdur və hər biri seçkilərə müsbət təsir göstərmişdir. Parlamentə seçilmiş deputatların mütləq əksəriyyəti bu müsbət meyillərə düzgün qiymət verir. Ola bilər ki, onların qələbəsi, o cümlədən bu amildən də asılıdır.

Bu gün biz müstəqil ölkə kimi yaşayırıq, müstəqil siyasət aparırıq, heç kimin işinə qarışmırıq, heç kimə də imkan vermirik ki, bizim işimizə qarışsın. Əminəm ki, biz bundan sonra da bu müstəqillik və inkişaf yolu ilə gedəcəyik. Əminəm ki, Azərbaycan parlamenti bu işdə fəal olacaq. Bir daha sizi təbrik edirəm, sizə yeni uğurlar arzulayıram. Sağ olun.

❖❖❖

Deputatlar adından Prezident İlham Əliyevə minnətdarlığını bildirən iclasın sədri **Ziyad SƏMƏDZADƏ** dedi:

- Hörmətli cənab Prezident, mən Milli Məclisin üzvləri adından Sizə dərin məzmunlu çıxışınıza görə ürəkdən təşəkkür edirəm. Siz həqiqətən bu çıxışla bir daha sübut etdiniz ki, Azərbaycan dövləti müstəqil siyasət yeridir, Azərbaycan dövləti dünyada qloballaşan nadir ölkələrdən biridir ki, o, özünün müstəqil iqtisadi siyasətini bütün dünyaya bəyan edir. Məhz iqtisadi müstəqillik sayəsində əldə edilən uğurlar bu gün Azərbaycanın inkişafını təmin etmişdir. Sizin sadaladığınız rəqəmlər həddən çox ürəkaçandır. Maraqlı bir məsələyə də toxundunuz ki, həqiqətən bu seçkilərdə bu deputatların uğurlu qələbəsinin kökündə Azərbaycan dövlətinin apardığı müstəqil siyasət dayanır. Mən xatırlayıram, 2005-ci ildə biz danışırdıq yoxsulluqdan 35-40 faiz, valyuta ehtiyatlarımız cəmi 100 milyon idi, bir milyard da deyildi. Bizə borc verəndə də çox ağır şərtlərlə vermək istəyirdilər. Amma bu gün siz o rəqəmləri deyəndə hər bir azərbaycanlı sevinir və qürur hissi keçirir ki, Ulu Öndər Heydər Əliyevin qurduğu Azərbaycan dövləti bu gün yaşayır, inkişaf edir. Haqlı olaraq bir məsələni də dediniz, mən bir iqtisadçı kimi demək istəyirəm ki, biz indidən Azərbaycanın yarım əsrlik inkişafı haqqında düşünməliyik. Yarım əsrlik inkişaf strategiyası, sənaye inqilabları və s. Bunlar hamısı təbii ki, bizim müəyyən baxışlarımızda da dəyişiklik edəcək. Sizin bu sahədə hökumətə, parlamentə verdiyiniz dəstək bizim qarşımızda kifayət qədər yeni vəzifələr qoyur. Əmin ola bilərsiniz ki, Milli Məclisə seçilən deputatlar birmənalı şəkildə Sizin apardığınız siyasəti dəstəkləyəcək, Sizin bu gün burada səsləndirdiyiniz tövsiyələri əsas tutaraq parlamentin işini daha da canlandıracaqlar. Allah Sizi qorusun, ailənizi qorusun və Azərbaycan dövlətini qorusun ki, Sizin kimi belə başçısı var. Sağ olun, var olun.

Hörmətli deputatlar, Milli Məclisin Daxili Nizamnaməsinin 2-ci, 35-ci, 36-cı və 41-ci maddələrinə əsasən birinci iclasın gündəliyinə 6 məsələ daxildir: Milli Məclisin Sədrinin, Sədr müavinlərinin seçilməsi, İntizam komissiyasının yaradılması, Hesablayıcı komissiyanın seçilməsi, Milli Məclis komitələrinin sədrlərinin və sədr müavinlərinin seçilməsi. Xahiş edirəm gündəliyə münasibət bildirək.

Gündəlik səsə qoyularaq qəbul edildi.

**Ziyad SƏMƏDZADƏ:** Gündəliyin birinci məsələsi Milli Məclisin Sədrinin seçilməsidir. Milli Məclisin Daxili Nizamnaməsinin 33-cü maddəsinə görə, Milli Məclisin Sədri vəzifəsinə namizədliyi deputatlar irəli sürə bilərlər. Hər deputat yalnız bir namizəd göstərə bilər. Öz namizədliyinə etiraz müzakirəsiz və səsvermə keçirilmədən qəbul olunur. Səsverməyə azı 10 deputatın tərəfdar çıxdığı namizədlər buraxılır. Parlament çoxluğunu təşkil edən Yeni Azərbaycan Partiyasının nümayəndələri bu səhər yığıncaq keçirib. Milli Məclisin Sədri vəzifəsinə Yeni Azərbaycan Partiyasının namizədini təqdim etmək üçün söz deputat Eldar İbrahimova verilir.

*Ardı 4-cü səh.*

# Azərbaycan daim müstəqil, prinsipial və milli maraqlara uyğun siyasət yürüdür

## Prezident İlham Əliyev: "Əminəm ki, altıncı çağırış Milli Məclis ölkəmizdə aparılan genişmiqyaslı və çoxşaxəli islahatlara, onların dərinləşməsi işinə öz töhfəsini verəcəkdir"

*Əvvəli 3-cü səh.*




Deputat **Eldar İBRAHİMOV** dedi:

- Çox sağ olun. Möhtərəm cənab Prezident, hörmətli deputat həmkarlarım. 2020-ci il fevralın 9-da Azərbaycanda Milli Məclisə azad, demokratik və şəffaf şəraitdə keçirilən seçkilər ölkə əhalisinin mütləq əksəriyyətinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yürütdüyü siyasətini qətiyyətlə dəstəkləməsinin yeni əyani nümunəsi oldu.

Azərbaycanda son illərdə əldə olunan nailiyyətlər, iqtisadiyyatın inkişafı, insanların rifahının yaxşılaşması sahəsində atılan addımlar, uğurlu xarici siyasət, ölkənin müdafiə qüdrətinin gücləndirilməsi, sabitlik və təhlükəsizlik kimi qəti şəkildə qərar tapmış reallıqlar Prezident İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının namizədlərinin uğurlu seçki kampaniyasının əsasını təşkil etmişdir. Xalqın böyük rəğbətini qazanmış, ölkənin firavan gələcəyinin təmin olunmasına hədəflənmiş geniş islahatlar siyasətinin hakim partiyanın və onun namizədlərinin seçicilər tərəfindən geniş şəkildə dəstəklənməsində xüsusi rolu ayrıca vurğulanmağa layiqdir. 2020-ci il növbədənkənar parlament seçkilərində 1300-dən çox namizədin deputat mandatı uğrunda mübarizəyə qoşulması ölkəmizdə qərarlaşmış demokratiya və qanun aliliyinin təzahürü, ardıcıl surətdə gerçəkləşdirilən islahatlar strategiyasına inamın ifadəsi olmaqla yanaşı, eyni zamanda, seçkilərin xüsusi rəqabət mübarizəsi və şəffaflıq şəraitində keçirildiyinin əyani sübutudur. Böyük rəqabət mübarizəsi ilə müşayiət olunan seçicilərin öz iradələrini sərbəst surətdə ifadə etmələri şəraitində baş tutan seçkilərdə Yeni Azərbaycan Partiyası 70 deputat mandatı qazanaraq Milli Məclisdə çoxluğa sahib olmuşdur. Biz bunu Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasətinin qətiyyətlə dəstəklənməsinin bariz ifadəsi, islahatlar konsepsiyasının qanunverici hakimiyyət sahəsində təntənəsi hesab edirik.

Yeni Azərbaycan Partiyasının Milli Məclisə keçirilmiş deputat qrupu parlamentdə çoxluq hüququndan istifadə edərək və partiya sədrinin tövsiyəsi nəzərə alınaraq Azərbaycan Respublikası Milli Məclisinin Sədri vəzifəsinə deputat Sahibə xanım Qafarovanın namizədliyini irəli sürür. Hörmətli Sahibə xanım Qafarova qanunvericilik fəaliyyəti sahəsində böyük təcrübəyə malikdir. 2010-cu ildən Yeni Azərbaycan Partiyasını Milli Məclisdə layiqincə təmsil edir. Beynəlxalq təşkilatlarda və görüşlərdə fəal iştirakı, Azərbaycanı bacarıqla təmsil etməsi, ölkəmizin mövqelərini qətiyyətlə müdafiə edə bilməsi ilə daim fərqlənmiş, seçicilərin dərin rəğbətini qazana bilmişdir. O, cəmiyyətdə xüsusi hörmət sahibidir. İnanırıq ki, malik olduğu şəxsi keyfiyyəti və təcrübəsi sayəsində Sahibə Qafarova Azərbaycan Respublikası Milli Məclisinin Sədri vəzifəsinin öhdəsindən layiqincə gələ biləcək. Yeni Azərbaycan Partiyası deputatlarının bugünkü qrup toplantısının qərarı bundan ibarətdir. Xahiş edirəm deputat həmkarlarım nəzərə alsınlar. Sağ olun.

**Ziyad SƏMƏDZADƏ:** Başqa təklif yoxdur? Deməli, Milli Məclisin Sədri vəzifəsinə biz bir nəfərin - Sahibə Qafarovanın namizədliyini irəli sürürük. Sahibə xanımdan xahiş edək öz razılığını bildirsin.

**Sahibə QAFAROVA** dedi: Zati-aliləri, möhtərəm cənab Prezident, hörmətli deputatlar, xanımlar və cənablar.

İcazə verin, Milli Məclisin Sədri vəzifəsinə namizədliyimi irəli sürdüyünə görə Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevə və partiya həmfikirlərimə dərin təşəkkürümü bildirim. Əgər deputatlar mənə etimad göstərərsə, Milli Məclisin Sədri kimi şərəfli vəzifəni layiqincə yerinə yetirmək üçün bütün bilik və bacarığımı sərf etməyə hazıram. Diqqətinizə görə sağ olun.

**Ziyad SƏMƏDZADƏ:** Çox sağ olun. Hörmətli deputatlar. Milli Məclisin Daxili Nizamnaməsinin 33-cü maddəsinə görə, Milli Məclisin Sədri elektron sistemdən istifadə etməklə gizli səsvermə yolu ilə seçilməlidir. Elektron sistemdə nasazlıq yarandıqda gizli səsvermə bülletenlər vasitəsilə keçirilir. Səsvermə nəticəsində azı 63 deputatın səsini almış namizəd Milli Məclisin Sədri seçilir. Gizli səsvermə proseduru başlanır. Xahiş edirəm deputat Sahibə Əli qızı Qafarovanın Azərbaycan Respublikası Milli Məclisinin Sədri seçilməsi məsələsinə münasibət bildirəsiniz.

Sonra səsvermə keçirildi və 116 səs lehinə olmaqla, deputat Sahibə Əli qızı Qafarova Azərbaycan Respublikası Milli Məclisinin Sədri seçildi.

❖❖❖

İclasda çıxış edən Milli Məclisin Sədri **Sahibə QAFAROVA** dedi:

- Zati-aliləri, möhtərəm cənab Prezident.

Hörmətli deputatlar.

Xanımlar və cənablar.

Etimad göstərib məni Azərbaycan Respublikası Milli Məclisinin Sədri seçdiyinizə görə sizə səmimi qəlbdən təşəkkürümü bildirirəm.

Əmin etmək istəyirəm ki, parlamentin Sədri kimi öhdəmə düşən vəzifələri layiqincə yerinə yetirmək üçün bütün bilik və bacarığımı sərf edəcəyəm. Bununla əlaqədar xüsusi qeyd etmək istəyirəm ki, cəmiyyətimizin aparıcı siyasi qüvvəsi olan və parlament çoxluğunu təşkil edən Yeni Azərbaycan Partiyasını təmsil etməyim mənim üçün həm qürur yeri, həm də güc mənbəyidir. Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olan Yeni Azərbaycan Partiyası möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında cəmiyyətimizin siyasi təkamülündə mühüm rol oynayır.

Hörmətli deputatlar, 2018-ci ilin prezident seçkilərindən sonra elan olunmuş əsaslı və hərtərəfli islahatlar dövlət və cəmiyyət həyatının bütün sahələrini əhatə etmişdir. Bu islahatların daha da dərinləşməsi və sürətlənməsi Milli Məclisin tərkibinin də yenidən formalaşması zərurəti yaratmışdır. Bununla əlaqədar olaraq, Yeni Azərbaycan Partiyasının təşəbbüsü ilə Milli Məclisin cənab Prezidentə müraciəti əsasında növbədənkənar parlament seçkiləri təyin olunmuşdur. Fevralın 9-da demokratik şəraitdə keçirilən azad və ədalətli seçkilər ölkəmizin demokratik quruculuq tarixində yeni səhifə açmışdır. Yeni Azərbaycan Partiyası üzvlərinin parlamentdə yerlərin əksəriyyətini əldə etməsi cənab İlham Əliyev başda olmaqla, partiyamıza bəslənən böyük ümid və etimadı bir daha ifadə etmişdir.

Beləliklə, altıncı çağırış Azərbaycan Respublikasının Milli Məclisi fəaliyyətə başlamışdır. Bu münasibətlə icazə verin, mən də deputat həmkarlarımı ürəkdən təbrik edim və onlara gələcək fəaliyyətində uğurlar arzulayım.

İnanıram ki, Milli Məclis Azərbaycanın dayanıqlı inkişafının təmin edilməsinə yönələn strateji xəttin uğurla həyata keçirilməsinə öz töhfəsini verəcəkdir. Bununla əlaqədar olaraq, ölkədə geniş vüsət alan sistemli islahatların yeni mərhələsinin başlanması qanunvericilik orqanının qarşısında da yeni vəzifələr irəli sürür. Məmnunluqla qeyd etmək istəyirəm ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Nazirlər Kabinetində, Prezident Administrasiyasında, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında, məhkəmə-hüquq sistemində, digər qurumlarda aparılan struktur və kadr islahatları ölkəmizin ictimai-siyasi və iqtisadi inkişafına yeni təkan vermişdir. Əminəm ki, bu islahatlar müasir dövrün yeni çağırışları şəraitində Azərbaycanın ardıcıl və dinamik yüksəlişini təmin etməyə kömək göstərəcəkdir.

Hörmətli deputatlar, bizim təcrübəmiz göstərir ki, cəmiyyətdə mövcud olan siyasi qüvvələrin, cərəyanların və fikirlərin bütün spektrini əks etdirən parlament əsl demokratiya və siyasi mədəniyyət məkanıdır. Hakimiyyətin müxtəlif qolları arasında səmərəli əməkdaşlıq ölkəmizin strateji inkişaf xəttinin uğurla həyata keçməsini təmin edir. Altıncı çağırış Milli Məclisin fəaliyyətinin ən mühüm istiqaməti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən quruculuq işlərinin hüquqi bazasını daha da təkmilləşdirmək və möhkəmləndirmək olacaqdır.

Milli Məclis özünün bütün fəaliyyəti ilə möhtərəm Prezidentimizin rəhbərliyi altında reallaşdırılan sosial-iqtisadi inkişaf strategiyasını dəstəkləməkdə davam edəcəkdir. Parlament xalqın maraqlarını ifadə etməli, deputat onu seçmiş insanların problemlərinə bələd olmalı, qayğılarına diqqət göstərməlidir. Milli Məclisin deputatlarının öz seçiciləri ilə əlaqələri müntəzəm xarakter daşımalı, onlar ayda bir neçə dəfə seçildiyi dairənin ərazisində olmalıdırlar. İnsanları narahat edən məsələlərin Milli Məclisdə, eləcə də digər dövlət orqanları qarşısında qaldırılması deputatlıq fəaliyyətinin mühüm istiqamətlərindən birini təşkil etməlidir.

Hörmətli deputatlar, məlum olduğu kimi, beynəlxalq münasibətlərdə parlament diplomatiyasının rolunun yüksəlməsi müasir dünya siyasətinin önəmli cəhətlərindən biridir. Məhz buna görə də Milli Məclis beynəlxalq ikitərəfli və çoxtərəfli əlaqələrin inkişafına diqqəti daha da artırmalıdır. Milli Məclis dövlətimizin xarici siyasətinin həyata keçirilməsinə parlament vasitələrinin verdiyi imkanlar daxilində kömək göstərməkdə davam etməlidir.

Milli Məclisin deputatları iştirak etdikləri hər bir beynəlxalq tədbirdə və görüşdə ən böyük problemimiz olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, torpaqlarımızın 20 faizinin hələ də işğal altında olması, bir milyon soydaşımızın qaçqın və köçkün kimi yaşaması barədə həqiqətləri çatdırmalı, ölkəmizin ərazi bütövlüyünün bərpası məsələsini qaldırmalı, yalançı erməni təbliğatını ifşa etməli, haqq işimizin müdafiəsində mübariz və mətin olmalıdırlar.

Bütün digər sahələrdə olduğu kimi, bu sahədə də cənab Prezidentin göstərdiyi nümunə daim gözümüzün önündə olmalıdır. Fevralın 15-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilən panel müzakirələrində möhtərəm Prezident cənab İlham Əliyevin çıxışı Azərbaycan diplomatiyasının növbəti böyük uğuru oldu. Qısaca desəm, dövlət başçısı Ermənistanın baş nazirinə beynəlxalq hüquq və tarix dərsi keçdi. Azərbaycan Prezidentinin səsləndirdiyi təkzibedilməz faktlar və dəlillər qarşısında Ermənistan rəhbəri aciz və gülünc vəziyyətə düşdü. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli barədə ölkəmizin qəti mövqeyi bir daha beynəlxalq ictimaiyyətə çatdırıldı. Bu polemika Azərbaycan və Ermənistan rəhbərlərinin səviyyələri arasında nə qədər böyük bir uçurum olduğunu göstərdi, eyni zamanda, möhtərəm Prezident cənab İlham Əliyevin dünya miqyaslı siyasi və dövlət xadimi olduğunu bir daha nümayiş etdirdi.

Münxendə Ermənistana vurulan sarsıdıcı zərbə ötən ilin oktyabr ayında Rusiyanın Soçi şəhərində "Valday" Diskussiya Klubunun toplantısında və Aşqabad şəhərində MDB Dövlət Başçıları Şurasının iclasında işğalçı dövlətin aldığı diplomatik zərbələrin uğurlu davamı oldu.

Hörmətli deputatlar, Milli Məclisin qanunvericilik fəaliyyətində əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsi məsələləri xüsusi yer tutur. Parlament bu istiqamətdə fəaliyyətini təkmilləşdirərək yeni qanunvericilik aktları qəbul etməlidir. Milli-mənəvi dəyərlərimizin qorunması, ailə və uşaqların müdafiəsi, bədən tərbiyəsi və idmanın inkişafı, dövlətimizin gənclər və qadın siyasətinin həyata keçirilməsi üçün zəruri qanunvericilik tədbirləri görülməlidir.

Bütün bu vəzifələrin uğurla yerinə yetirilməsi Milli Məclisin hər bir üzvündən yüksək peşəkarlıq, səriştə, işə məsuliyyətli münasibət, yaradıcı düşüncə və digər zəruri keyfiyyətlər tələb edir.

Əminəm ki, möhtərəm Prezidentimizin çıxışında irəli sürdüyü dəyərli tövsiyələri fəaliyyətimizin əsas cəhətlərini müəyyənləşdirən yol xəritəsi kimi qəbul edəcəyik, onun söylədiyi iradların aradan qaldırılması isə mühüm hədəflərimizdən birini təşkil edəcəkdir.

Milli Məclis dövlət hakimiyyətinin digər qolları ilə sıx qarşılıqlı əlaqə şəraitində səmərəli işləyəcək. Hörmətli həmkarlar, biz sizinlə birlikdə Azərbaycan parlamentinin üzvü adını şərəflə qoruyacağıq.

Diqqətinizə görə çox sağ olun.

❖❖❖

Sonra Milli Məclis Sədrinin müavinləri seçildi.

Deputat Əli Hüseynli Milli Məclis Sədrinin birinci müavini, deputatlar Adil Əliyev və Fəzail İbrahimli Sədrin müavinləri seçildilər.

❖❖❖

Milli Məclisin Sədri Sahibə Qafarova İntizam Komissiyasının və Hesablayıcı Komissiyanın tərkibinə namizədlərin adlarını elan etdi. Milli Məclisin Daxili Nizamnaməsinə əsasən namizədlər bütövlükdə səsə qoyularaq təsdiq edildilər.

❖❖❖

Daha sonra parlament komitələrinin sədrləri seçildi.

Deputat Əli Hüseynli Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin, Ziyafət Əsgərov Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin, Tahir Mirkişili İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin, Sadiq Qurbanov Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin, Tahir Rzayev Aqrar siyasət komitəsinin, Musa Quliyev Əmək və sosial siyasət komitəsinin, Siyavuş Novruzov Regional məsələlər komitəsinin, Bəxtiyar Əliyev Elm və təhsil komitəsinin, Qənirə Paşayeva Mədəniyyət komitəsinin, Zahid Oruc İnsan hüquqları komitəsinin, Səməd Seyidov Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin, Əhliman Əmiraslanov Səhiyyə komitəsinin, Hicran Hüseynova Ailə, qadın və uşaq məsələləri komitəsinin, Fəzail İbrahimli İctimai birliklər və dini qurumlar komitəsinin, Adil Əliyev Gənclər və idman komitəsinin sədrləri təsdiq edildilər.

İclasda komitə sədrlərinin müavinləri də təsdiq olundu.

Bununla da altıncı çağırış Milli Məclisin birinci iclası başa çatdı.

# Birinci vitse-prezident Mehriban Əliyeva Beynəlxalq Qadınlar Günü münasibətilə xanımları təbrik edib



Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Əziz qadınlar! Beynəlxalq Qadınlar Günü münasibətilə sizi səmimi-qəlbdən təbrik edirəm! Sizə möhkəm cansağlığı, gözəl əhvali-ruhiyyə, sevinc dolu işıqlı və xoşbəxt anlar, bütün işlərinizdə uğurlar arzulayıram! Qoy doğma və yaxınlarınızın sevgisi sizin tükənməz enerji mənbəyiniz olsun! Qoy sizin zərifliyiniz, mehribanlığınız və müdrikliyiniz ailə ocağınızın və səadətinizin etibarlı mühafizəçisi olsun! Tanrı sizi və doğmalarınızı qorusun! Sevgilərlə, Mehriban".

# Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti ilə Bolqarıstan Respublikasının Daxili İşlər Nazirliyi arasında sərhəd məsələləri üzrə əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə

**Azərbaycan Respublikası Prezidentinin Fərmanı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti ilə Bolqarıstan Respublikasının Daxili İşlər Nazirliyi arasında sərhəd məsələləri üzrə əməkdaşlıq haqqında 2019-cu il noyabrın 21-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Bolqarıstan Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 mart 2020-ci il*

# M.M.Sadıqovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Mirdaməd Mirsadıq oğlu Sadıqov "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 mart 2020-ci il*

# C.X.Əkbərovun 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Canəli Xanəli oğlu Əkbərov 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 mart 2020-ci il*

# C.V.Məmmədovun Azərbaycan İlahiyyat İnstitutunun rektoru vəzifəsindən azad edilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Ceyhun Valeh oğlu Məmmədov Azərbaycan İlahiyyat İnstitutunun rektoru vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 mart 2020-ci il*

# H.K.Hüseynovanın Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri vəzifəsindən azad edilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Hicran Kamran qızı Hüseynova Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 mart 2020-ci il*

# A.S.Məmmədovun Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Aqil Sadıq oğlu Məmmədov Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 mart 2020-ci il*

# Azərbaycan Respublikası Milli Məclisi komitələrinin sədr müavinlərinin seçilməsi haqqında

**Azərbaycan Respublikası Milli Məclisinin Qərarı**

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Azərbaycan Respublikası Milli Məclisinin deputatları aşağıdakı komitələrin sədr müavinləri seçilsinlər:

**Qüdrət Müzəffər oğlu Həsənquliyev**
Hüquq siyasəti və dövlət quruculuğu komitəsi;

**Hikmət Baba oğlu Məmmədov**
Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsi;

**Tahir Zayıdağa oğlu Kərimli**
İnsan hüquqları komitəsi;

**Asim Nazim oğlu Mollazadə**
Təbii ehtiyatlar, energetika və ekologiya komitəsi;

**Əli Əhməd oğlu Məsimli**
İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi;

**Sabir Kamal oğlu Hacıyev**
Aqrar siyasət komitəsi;

**Məlahət İbrahim qızı İbrahimqızı**
Əmək və sosial siyasət komitəsi;

**Rəşad Məmmədqulu oğlu Mahmudov**
Səhiyyə komitəsi;

**Jalə Fazil qızı Əliyeva**
Ailə, qadın və uşaq məsələləri komitəsi;

**Şahin Əmir oğlu İsmayılov**
Gənclər və idman komitəsi;

**Sahib Eyvaz oğlu Alıyev**
İctimai birliklər və dini qurumlar komitəsi;

**Elşən Məmmədhənifə oğlu Musayev**
Regional məsələlər komitəsi;

**Musa Cəfər oğlu Qasımlı**
Elm və təhsil komitəsi;

**Fazil Qəzənfər oğlu Mustafa**
Mədəniyyət komitəsi;

**Sevinc Həbib qızı Fətəliyeva**
Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 10 mart 2020-ci il*

# Nazirlər Kabineti: "Makroiqtisadi sabitlik qorunacaq"

## Nazirlər Kabinetində neft bazarındakı vəziyyət, onun Azərbaycana təsirləri və qabaqlayıcı tədbirlər müzakirə olunub

Martın 10-da Azərbaycan Respublikasının Nazirlər Kabinetində Baş Nazir Əli Əsədovun sədrliyi ilə müşavirədə qlobal enerji bazarında vəziyyət və onun iqtisadiyyata təsirinə dair məsələlər müzakirə edilib.



Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müşavirədə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov, İqtisadiyyat naziri Mikayıl Cabbarov, Maliyyə naziri Samir Şərifov, Mərkəzi Bankın sədri Elman Rüstəmov, Dövlət Neft Fondunun İcraçı direktoru İsrafil Məmmədov və Baş Nazirin köməkçisi Fəxri İsmayılov iştirak ediblər.

Dünyada koronavirus infeksiyasının yayılmasının qlobal iqtisadiyyata mənfi təsirlərinin artdığı şəraitdə əsas neft ixracatçıları arasında hasilatın həcmi barədə fikir ayrılığının yaranması dünya bazarında neftin qiymətinin kəskin ucuzlaşmasına səbəb olub.

Azərbaycan hökuməti dünya iqtisadiyyatında gedən prosesləri diqqət mərkəzində saxlayaraq baş verə biləcək neqativ iqtisadi tendensiyaların ölkə iqtisadiyyatına mənfi təsirlərinin neytrallaşdırılması üçün preventiv tədbirlər planlarına malikdir. Belə ki, neftin qiymətinin kəskin ucuzlaşmasının tədiyə balansına təsirlərinin proqnoz ssenariləri hazırlanıb. Bu ssenarilərə uyğun olaraq, zərurət yarandığı hallarda müvafiq sabitləşdirici tədbirlər paketi həyata keçiriləcək.

Qeyd edək ki, dünyada baş verən neqativ iqtisadi meyillər fonunda belə Azərbaycan iqtisadiyyatı dayanıqlılıq nümayiş etdirir, iqtisadiyyatımız inkişaf edir, ölkənin maliyyə imkanları genişlənir. Bu gün ölkə iqtisadiyyatı 2014-cü ildən başlanan qlobal maliyyə-iqtisadi böhranı dövründən daha dayanıqlıdır. Əvvəlki illərdə olduğu kimi, 2020-ci ildə də müsbət inkişaf dinamikası davam edir. Belə ki, yanvar-fevral aylarında qeyri-neft ÜDM-i 6,7 faiz, ÜDM isə 2,8 faiz artıb.

Neft bazarında və qlobal iqtisadiyyatda baş verən hadisələrə qarşı ölkə iqtisadiyyatının kifayət qədər yüksək maliyyə immuniteti və təhlükəsizlik "yastığı" mövcuddur. 2019-cu ilin yekunlarına görə, strateji valyuta ehtiyatlarımız ÜDM-in 100 faizini ötür, valyuta ehtiyatları xarici dövlət borcunu 6 dəfə üstələyir.

Valyuta bazarında sabitliyin və manatın məzənnəsinin qorunması məqsədilə zəruri tədbirlər görülməsi üçün bütün imkanlar vardır. Həm monetar, həm də iqtisadi siyasətin digər istiqamətləri üzrə nəzərdə tutulan tədbirlər inflyasiyanın hədəflənən səviyyədə saxlanılmasını təmin edəcək.

Eyni zamanda dövlət büdcəsinin maliyyə dayanıqlılığının daha da gücləndirilməsi üçün əlavə tədbirlər görüləcək, xərclərin optimallaşdırılması və səmərəli istifadəsi üzərində ciddi nəzarət davam etdiriləcək.

Vurğulanmalıdır ki, 2020-ci il üçün qəbul edilmiş dövlət büdcəsinin xərcləri, o cümlədən bütün sosial layihə və öhdəliklər nəzərdə tutulan qrafik üzrə tam həcmdə və vaxtında icra olunur, heç bir sosial layihənin təxirə salınması nəzərdə tutulmur.

Hökumət qlobal iqtisadiyyatda baş verən son hadisələrin ölkədə iqtisadi artıma və məşğulluğa mənfi təsirlərinin aradan qaldırılması üçün müvafiq təsir alətlərinə malikdir və zəruri olduğu halda bu alətlərdən çevik istifadə olunacaq.

Bununla yanaşı, istehlak bazarına ciddi nəzarət edilir və vəziyyətdən sui-istifadə etməklə baş verə biləcək süni qiymət artımına və əsassız qıtlığa qarşı sərt tədbirlər görüləcək.

# Dövlət Komitəsinin sədri vətəndaşları qəbul edib

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı martın 10-da Saatlı rayonundan olan vətəndaşları qəbul edib.

Vətəndaşların müraciətləri dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, dini maarifləndirmə ilə əlaqədar icmaların layihələrinin maliyyələşdirilməsi, Quran kurslarının təşkil edilməsi, ali dini təhsil məsələlərini əhatə edib. Müraciətlərin bir qismi yerindəcə öz həllini tapıb. Araşdırılmaya ehtiyac olan bir sıra məsələlərin qanunvericiliyə uyğun, operativ həlli üçün müvafiq tapşırıqlar verilib.

Qəbula gələn vətəndaşlar bölgələrdə müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını dilə gətirərək göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# RİİB www.teklifimvar.az portalını yaradır

"Regional İnkişaf" İctimai Birliyi (RİİB) www.teklifimvar.az portalı hazırlayır. Tezliklə istifadəyə veriləcək portala vətəndaşlar müxtəlif sosial-iqtisadi, infrastruktur və digər məsələlərlə bağlı təkliflərini göndərə biləcəklər.

Birlikdən AZƏRTAC-a bildiriblər ki, daxil olan təkliflər işçi qrup tərəfindən araşdırıldıqdan sonra daha vacib və məqsədəmüvafiq olanlar portalda yerləşdiriləcək. Qeyd edilən platforma üzərindən aidiyyəti qurumlara daxil olan təkliflərin reallaşdırılmasına dəstək göstərmək imkanı yaradılacaq. Görülən işlərin nəticələri barədə məlumat portalda yerləşdiriləcək.

Portalın yaradılmasında məqsəd vətəndaşları ölkənin sosial-iqtisadi, ictimai və mədəni həyatında, vətəndaş cəmiyyəti quruculuğunda, dövlət tərəfindən regionların inkişafı üzrə reallaşdırılan tədbirlərdə daha fəal iştiraka təşviq etməkdir.

Xatırladaq ki, "Regional İnkişaf" İctimai Birliyi ictimai nəzarətin həyata keçirilməsi, əhalinin müxtəlif müraciətlərinin araşdırılması, onların aidiyyəti qurumlarla əməkdaşlıq şəraitində həlli, eləcə də elm, təhsil, səhiyyə, sosial, ekologiya, turizm, idman və digər sahələrdə layihələrin icrası istiqamətində fəaliyyət göstərir.

# Operativ qərargah: "Bakıda və respublikanın müxtəlif regionlarında ənənəvi Novruz şənlikləri ləğv edilir"

Ümumdünya Səhiyyə Təşkilatı son günlərdə koronavirus xəstəliyinə yoluxma hallarının artmasını, virusun coğrafiyasının genişlənməsini nəzərə alaraq dövlətlər tərəfindən müvafiq preventiv tədbirlərin gücləndirilməsi, eləcə də kütləvi tədbirlərin təxirə salınması təşəbbüsü ilə çıxış edib. Nazirlər Kabineti yanında operativ qərargahdan AZƏRTAC-a bildiriblər ki, virusun dünya üzrə əhatə dairəsi genişləndiyindən ölkəmizdə də müvafiq profilaktik tədbirlər gücləndirilib. Bununla əlaqədar bildiririk ki, Bakı şəhərində və respublikanın müxtəlif regionlarında mart ayında keçirilməli olan ənənəvi Novruz şənlikləri ləğv edilir.

Operativ qərargah mütəxəssislər ilə aparılan məsləhətləşmələr və Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrindən irəli gələrək ayrı-ayrı qurumları yaxın müddətdə hər hansı kütləvi tədbir keçirməməyə, artıq təyin olunan tədbirlərin tarixini isə dəyişdirməyə çağırır.

Həmçinin adamların sıx toplaşdığı məkanlarda virusa yoluxma riski yüksək olduğundan qarşıdakı aylarda toy və bu cür məclislərin təxirə salınması, yas mərasimlərinin isə kütləvi keçirilməməsi tövsiyə edilir.

Virusun geniş yayılmasının qarşısının alınması məqsədilə Azərbaycan hökuməti tərəfindən aparılan tədbirlərə dəstək olaraq vətəndaşlarımızı bir daha adamların sıx toplaşdığı yerlərdən, qapalı məkanlardan uzaq durmağa, xarici ölkələrə, eyni zamanda, risk qrupu ölkələrinə səfərlərini təxirə salmağa, vacib səfərlər zamanı isə qoruyucu tədbirlərə maksimum riayət etməyə (qoruyucu tibbi maska, xüsusi qoruyucu eynək, dezinfeksiyaedici vasitələrdən istifadə və s.) çağırırıq.

# Naxçıvanda qoşunların komanda-qərargah təlimi başlayıb

"Naxçıvan Qarnizonu Qoşunlarının 2020-ci tədris ilinə uzlaşma planı"na əsasən komanda-qərargah təlimi başlayıb.

Əlahiddə Ümumqoşun Ordunun mətbuat xidmətindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, ikitərəfli, üçpilləli komanda-qərargah təliminin ssenarisinə uyğun olaraq Naxçıvan Qarnizonu Qoşunları müxtəlif döyüşə hazırolma dərəcələrinə gətirilib, birləşmə və hissələr "Təlim-döyüş həyəcan" siqnalı ilə qaldırılaraq cəmləşmə rayonlarına çıxarılıb.



Xüsusi qoşun növlərinin birləşmələrinin də cəlb edildiyi təlimdə müasir rabitə və avtomatik idarəetmə sistemlərindən istifadə etməklə idarəetmənin bir məntəqədən digərinə ötürülməsi, mübadilə axınından səmərəli istifadənin məşqi həyata keçirilir. Ərazidə qərargahlar tərəfindən müdafiə və hücum əməliyyatları planlaşdırılır. Təlimdə əsas diqqət düşmənin qəfil hücumunun qarşısının alınması və təxribat-diversiya qruplarının məhv edilməsi zamanı qoşunlar arasında qarşılıqlı fəaliyyətlərin idarə olunmasında qərargahların və zabitlərin peşəkarlığının artırılmasına yönəldilib.

# İrandan qayıdan iki nəfərdə koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb

İran İslam Respublikasından qayıdan 1966 və 1978-ci il təvəllüdlü iki Azərbaycan Respublikasının vətəndaşında koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb.

Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetinin yanında operativ qərargahdan məlumat verilib.

Məlumata əsasən, hazırda xüsusi rejimli xəstəxanalara yerləşdirilən və müşahidə altında olan pasiyentlər özlərini normal hiss edirlər, səhhətləri stabildir. Bundan əvvəl koronavirus infeksiyasına yoluxma faktı qeydə alındıqdan sonra xüsusi rejimli xəstəxanaya yerləşdirilmiş 1938-ci il təvəllüdlü Azərbaycan Respublikası vətəndaşının səhhəti stabil-orta ağırdır, hazırda xəstə nəzarət altında saxlanılır və sağlıq durumunun yaxşılaşması üçün lazımi tədbirlər görülür.

Xüsusi rejimli xəstəxanalara yerləşdirilmiş digər pasiyentlərin vəziyyəti stabildir.

# Operativ qərargah: "Koronavirusa görə karantinə alınmış şəxslərdən 312 nəfəri sərbəst buraxılıb"

Azərbaycan Respublikasında koronavirus (COVID - 19) infeksiyasının yayılmasının qarşısının alınması və infeksiyaya yoluxma hallarının müəyyənləşdirilməsi məqsədilə müxtəlif xəstəxanalarda yaradılmış karantin zonalarına daxil olan şəxslərin müayinəsi davam etdirilir. Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetinin yanında operativ qərargahdan məlumat verilib.

Dünya Səhiyyə Təşkilatının tövsiyələrinə uyğun olaraq, karantinə alınan şəxslər müvafiq müayinədən keçirilir, o cümlədən onlardan laborator analizlər götürülür, səhhətləri nəzarət altında saxlanılır. İnfeksiyaya yoluxma faktı təsdiq olunan şəxslər dərhal xüsusi rejimli xəstəxanalara köçürülür, onların müalicəsi ilə bağlı müvafiq tədbirlər görülür. Martın 10-na olan məlumata görə, müayinə və laborator analizlər vasitəsilə infeksiyaya yoluxma faktı təsdiq edilməmiş və səhhəti şübhə doğurmayan 312 nəfər karantin müddətini başa vuraraq sərbəst buraxılıb.

# Ermənistan ordusunun bölmələri snayper tüfənglərindən istifadə etməklə atəşkəs rejimini 30 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə atəşkəs rejimini 30 dəfə pozub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Noyemberyan rayonunun Voskevan, İcevan rayonunun Berkaber kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Azərbaycan Respublikasının Qazax rayonunun Aşağı Əskipara, Qızılhacılı və Gədəbəy rayonunun Zamanlı kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Acarlı, Mərzili, Füzuli rayonunun Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

Qabaqlayıcı tədbirlər səmərə verir





# Xəzərdə də koronavirusla mübarizə gücləndirilib

## Dövlət Dəniz Agentliyində daxili sanitar-gigiyenik vəziyyətlə yanaşı, dənizdə xarici bayraq altında üzən gəmilərin giriş-çıxışına, yükaşırmalara nəzarət artırılıb



**Üç aydır dünyanı lərzəyə salan yeni tip koronavirus (COVİD - 19) infeksiyasına yoluxma və ölüm halları ilə bağlı xəbərlər gündəmi "bəzəməyə" davam edir. Virusun yayıldığı ölkələrin sayı gündən-günə artmaqdadır. Hazırda epidemiya 115 ölkədə qeydə alınıb. Dünyada koronavirusa yoluxanların sayı 110 mini keçib. Onlardan 64 min nəfərdən çoxu sağalıb.**

### "Mirvari" gəzinti gəmisində dezinfeksiya işləri həyata keçirilib

Bütün ölkələrdə olduğu kimi, Azərbaycan ərazisində də koronavirusun yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə təxirəsalınmaz işlər həyata keçirilir. Hökumət bu virusun yayılmasının qarşısının alınması və profilaktikası, əhalinin sağlamlığının mühafizəsi ilə bağlı bütün lazımi tədbirləri yüksək səviyyədə davam etdirir. Bununla bağlı müvafiq maarifləndirici, eyni zamanda tibbi baxımından tədbirlər həyata keçirilir, Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə uyğun olaraq digər zəruri addımlar atılır. Yoluxma hallarının qarşısının alınması məqsədilə ölkədə dezinfeksiyaedici və digər qabaqlayıcı tədbirlər intensivləşdirilir.

Bütün bağça, orta məktəb və ali təhsil müəssisələrində, hər növ ictimai nəqliyyatda, dövlət və özəl müəssisələrdə dezinfeksiya işləri aparılır. Bu sırada Dövlət Dəniz Agentliyinin həyata keçirdiyi tədbirlər də qeyd olunmalıdır.

Belə ki, koronavirus infeksiyasının Azərbaycanda yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə görülən qabaqlayıcı tədbirlər çərçivəsində martın 9-da Dövlət Dəniz Agentliyinin inzibati binasında, agentliyin Dəniz Üzgüçülüyünün Təhlükəsizliyi Mərkəzinin, Nəqliyyat və Texniki-Təminat İdarəsinin inzibati binasında dezinfeksiya işləri həyata keçirilib.

Dövlət Dəniz Agentliyinin Mətbuat xidmətinin rəhbəri Tural Müseyibov bildirib ki, agentlikdə sanitar-gigiyenik vəziyyət nəzarətdə saxlanılır, əməkdaşlar arasında bu istiqamətdə mütəmadi olaraq profilaktik söhbətlər edilir, maarifləndirmə işləri görülür.

Həmçinin Dövlət Dəniz Agentliyinin nümayəndələrinin iştirakı ilə Dənizkənarı Bulvar İdarəsinin "Mirvari" gəzinti gəmisində də dezinfeksiya işləri həyata keçirilib. Gəmi heyətinə sanitar-gigiyenik vəziyyəti nəzarətdə saxlamaqla bağlı lazımi tövsiyələr verilib.

Qeyd edək ki, Dənizkənarı Milli Parkda xidmət göstərən "Mirvari" gəzinti gəmisinin sərnişin tutumu 446 nəfərdir. Dəniz gəzintilərində "Mirvari" gəmisindən istifadə olunur. Gəmi orta hesabla gündə 6-7 səfər edir. Tələbatdan asılı olaraq gün ərzində gəzintilərdə ən az 5, ən çox isə 11-12 səfərə qədər artım olur.

### Xarici bayraq altında üzən gəmilər də nəzarətdədir

Tarixən qədim İpək yolunun keçdiyi və bir-birinə uzaq məsafədə yerləşən dövlətləri ən qısa yolla birləşdirən Azərbaycan ticari-iqtisadi dəhlizlərin qovuşduğu məkan olub. Bu gün Avrasiya məkanının mühüm logistik mərkəzlərindən birinə çevrilən Azərbaycan həm də bu sahədə yeni təşəbbüslərin müəllifidir. İpək yolu üzərində geniş iqtisadi zolağın yaradılmasının fəal dəstəkçisi olan respublikamız müxtəlif istiqamətlərə tranzit daşımalarının səmərəli təşkilinə də etibarlı təminat verir.









Ümumiyyətlə, dünya ticarət məhsullarının 80 faizdən artıq hissəsinin təhlükəsiz, maddi cəhətdən sərfəli və ətraf mühitə daha az mənfi təsir göstərməklə daşınması məhz dəniz nəqliyyatı vasitəsilə həyata keçirilir. Azərbaycan bu istiqamətdə böyük nailiyyətlər qazanmaqdadır.

Bəs, görəsən, Dövlət Dəniz Agentliyi koronavirus infeksiyasının beynəlxalq yükdaşımalarda qarşısının alınması istiqamətində hansı işləri həyata keçirir?

Tural Müseyibovun sözlərinə görə, koronavirus infeksiyasının Azərbaycan Respublikasının ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə hazırda ölkəmizin bütün limanlarında xarici bayraq altında üzən gəmilərin giriş-çıxışı və limanlarda yükaşırmaları əməliyyatı zamanı Beynəlxalq Dəniz Təşkilatı və Ümumdünya Səhiyyə Təşkilatının müvafiq tövsiyələrinə uyğun olaraq Dövlət Dəniz Agentliyinin mütəxəssisləri liman rəhbərliyi ilə birgə tədbirlər həyata keçirməkdədir.

Martın 3-də Goranboy Rayon Mərkəzi Xəstəxanasının açılışında Prezident İlham Əliyev məhz bu məsələyə toxunaraq qeyd etmişdir ki, Azərbaycan tranzit ölkə olduğu üçün heç bir yükdaşımalara məhdudiyyət qoyulmur. Ancaq bu sahəyə də xüsusi diqqət göstərərək tranzit yüklərin, xüsusilə cənub istiqamətindən ölkəmizə daxil olan, həm Azərbaycan istehlakçıları, həm də qonşu ölkələrin istehlakçıları üçün lazımi yüklərin çatdırılması ilə bağlı mütəşəkkil qaydada işlər aparılır: "Yəni hər bir xırdalığa qədər düşünülmüş addımlar atılır, bunun da məqsədi Azərbaycan vətəndaşlarını bu xəstəlikdən qorumaqdır. Bu günə qədər bizim bütün addımlarımız uğurla nəticələnib. Biz daim Ümumdünya Səhiyyə Təşkilatı ilə təmasdayıq və xəstəliyi aşkar etmək üçün testlərin ölkəmizə gətirilməsi ilə bağlı işlər aparılır, bu məsələ öz həllini tapır. Azərbaycan hökuməti bütün lazımi tədbirləri görür".

*Göründüyü kimi, ölkə ərazisində koronavirusun yarada biləcəyi təhlükənin qarşısının alınması, əhalinin sağlamlığının mühafizəsi istiqamətində dövlət bütün lazımi tədbirləri həyata keçirir. Ölkədə əhalinin narahatlığı üçün heç bir ciddi əsas yoxdur.*

***Xəyalə MURADLI, "Azərbaycan"***





# İstanbul Texnik Universitetinin rektoru Bakı Ali Neft Məktəbində olub





**Bakı Ali Neft Məktəbinin mətbuat xidmətinin verdiyi məlumata görə, BANM-ın rektoru Elmar Qasımovun dəvəti ilə İstanbul Texnik Universitetinin (İTU) rektoru, professor Mehmet Karacanın rəhbərlik etdiyi nümayəndə heyəti Bakıda səfərdə olub.**

Səfər çərçivəsində Bakı Ali Neft Məktəbinin rəhbərliyi və professor-müəllim heyəti ilə işgüzar görüşlər keçirilib, SOCAR-ın Kadr, Rejim və İnformasiya texnologiyaları üzrə vitse-prezidenti Xalik Məmmədovla gələcək əməkdaşlıq məsələləri müzakirə olunub.

Bakı Ali Neft Məktəbinin əsas tədris korpusunu ziyarət edən qonaqlar burada yaradılan şəraitlə yaxından tanış olublar. Onlara elmi-tədqiqat laboratoriyalarının, kitabxananın, idman və fitnes zallarının, tələbə evinin fəaliyyəti barədə ətraflı məlumat verilib.

Rektor Elmar Qasımovla görüş zamanı BANM ilə İTU arasında müxtəlif istiqamətlərdə əməkdaşlıq perspektivləri barədə fikir mübadiləsi aparılıb. Eyni zamanda BANM-da yaradılması nəzərdə tutulan kompüter mühəndisliyi ixtisası üzrə İTU-nun təcrübəsinin öyrənilməsi, birgə akademik proqramların həyata keçirilməsi, professor-müəllim heyəti və tələbə mübadiləsi, ikili diplom, birgə innovasiya layihələrinin reallaşdırılması məsələləri müzakirə edilib.

Elmar Qasımov İstanbul Texnik Universitetinin mühəndislik sahəsindəki çoxillik effektiv fəaliyyətinin BANM üçün uğurlu təcrübə olacağını bildirib. O, bu baxımdan ikitərəfli əməkdaşlığın daha geniş müstəvidə davam etdirilməsinin vacibliyini bildirib. E.Qasımov gənc Ali Məktəb olmasına baxmayaraq, BANM-ın mühəndislik sahəsində yüksək ixtisaslı peşəkar mühəndis kadrların yetişdirilməsində lider mövqeyini qoruyub saxladığını vurğulayıb. Rektor ölkənin ən intellektual potensiallı gənclərin də BANM-da təhsil aldığını qonaqların diqqətinə çatdırıb.

İTU rektoru, professor Mehmet Karaca isə öz növbəsində rəhbərlik etdiyi universitet barədə geniş məlumat verərək 150 illik tarixi olan İTU-nun nüfuzlu məzunlarından, xarici əlaqələrindən, beynəlxalq reytinq cədvəllərindəki mövqeyindən danışıb. O, BANM ilə əlaqələrin genişlənməsinə maraqlı olduğunu qeyd edərək bu görüşü gələcək əməkdaşlığın yeni mərhələsi kimi qiymətləndirib.

Daha sonra BANM ilə İTU arasında əməkdaşlığa dair memorandum imzalanıb. Eyni zamanda BANM-ın Erasmus+ və Beynəlxalq Proqramlar Ofisi ilə İTU arasında "Mevlana" Mübadilə Proqramı çərçivəsində əməkdaşlığa dair də müqavilə imzalanıb.

Qeyd edək ki, sözügedən proqramın məqsədi Türkiyə Cümhuriyyətinin ali təhsil müəssisələri ilə digər ölkələrin ali təhsil müəssisələri arasında tələbə və akademik heyətin mübadiləsini həyata keçirməkdən ibarətdir.

Sonda Elmar Qasımov İTU rektoru Mehmet Karacaya BANM-ın "Fəxri qonaq" plaketini təqdim edib.


## "Azərişıq" ASC müxtəlif tipli dayaqların və müxtəlif növ sayğacların satın alınması məqsədilə

## *açıq tender elan edir*

Tender 2 (iki) LOT üzrə keçirilir:

**LOT-1**

Müxtəlif tipli dayaqların satın alınması - 400 manat

**LOT-2**

Müxtəlif növ sayğacların satın alınması - 400 manat

**Azərişıq ASC**
**Hesab No: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab No: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs - Zaur Abdullayev (telefon: 440-39-93 daxili (23-32))

Zaur Abdulla @azerishiq.az

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (https://etender.gov.az/).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **21 aprel 2020-ci il saat 16:00-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **29 aprel 2020-ci il saat 16:00-a** qədər Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **30 aprel 2020-ci il saat 16:00-da** Ələsgər Qayıbov küç., 8 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Qax Suvarma Sistemləri İdarəsi

## *açıq tenderə dəvət edir*

**Tender 1 LOT üzrə keçirilir.**

LOT -1. Cari təmir işləri üçün tikinti materiallarının satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, satınalma elektron Portal vasitəsilə keçirildiyi üçün elektron formada müraciət etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti. Müqavilənin yerinə yetirilməsi üçün tender iştirakçıları texniki və maliyyə imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Portal vasitəsilə əldə edə bilərlər.

Əlaqələndirici şəxs: E.Xudeynarov, tel: 0144-4-30-23, 0705779034, 0555779034

**İştirak haqqı: 100 (bir yüz) manat**

**Təşkilat Qax SSİ**
**Hesab: AZ20AİİB32051019447100201171**
**VÖEN: 4300088051**
**Bank: Kapital Bank ASC Qax filialı**
**Kod: 200714**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T BIK AİİBAZ 2x**
**Büdcə təsnifat kodu: 142330**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada elektron formada təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi haqqında bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifinin dəyərinin 1 faizi miqdarında bank təminatı (zərflərin açıldığı gündən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikası vergilər və digər icbari ödənişlərin yerinə yetirilməsi, vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış ( 07.01.2020-ci il tarixdən sonra alınmaqla);*
- *fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (son maliyyə dövrünə olan məlumatı əks etdirməklə);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (07.01.2020-ci il tarixdən sonra alınmaqla);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (07.01.2020-ci il tarixdən sonra alınmaqla);*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər: müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, girovun olmaması, məhkəmənin qərarı ilə fəaliyyətinin dayandırılmaması barədə, maddi texniki bazası, işçi sayı barədə və yerləşdiyi yerə dair geniş arayış.*

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) **03 aprel 2020-ci il saat 09:30-a** qədər, tender təklifi və bank zəmanətini isə **13 aprel 2020-ci il saat 18:00-a** qədər Portal vasitəsilə Tender komissiyasına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **14 aprel 2020-ci il saat 09:30-da** Portal vasitəsilə həyata keçiriləcəkdir.

***Tender komissiyası***








# Çərşənbə tonqalı başında səslənən xoş arzular

Yaz gecikə də bilər, tələsə də bilər. Lakin xalqımız bahar bayramını həmişə eyni vaxtda qeyd edir. Çünki Novruz bayramı bizim üçün başqa heç bir bayramla müqayisə edilməyəcək dərəcədə doğma və əzizdir. Bu bayram sovet dönəmində uzun illər dövlət tərəfindən yasaqlansa belə, eldə-obada sevilə-sevilə qeyd edilirdi. Sovet dövründə də insanlar umu-küsünü, giley-güzarı unudub bir araya gəlir, birlikdə sevinib şadlanır, bayramlaşırdılar.

Niyə də bayramlaşmasınlar? Axı bu bayram hər il öz gəlişi ilə insanlara təzə nəfəs, yeni həyat gətirir. Təbiət oyanır, kol dibindən boylanan bənövşələrin xoş ətri yayılır, al-əlvan çiçək örpəkli ərik, alça, badam ağacları, zümrüd libaslı çəmənlər ecazkar gözəlliyi ilə gözümüzü oxşayır, ruhumuza sığal çəkir.

Su, Od çərşənbələrində olduğu kimi, builki Yel çərşənbəsi günündə də Ağdamda məcburi köçkünlər üçün dövlət vəsaiti ilə salınmış Qasımbəyli qəsəbəsində alovlanan Novruz tonqalının başına yığışanlar qürurverici birliyimizi bir daha nümayiş etdirdilər.

Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov da tonqal başına toplaşanlar arasında idi. O, tonqala od vuranda ocaq başına yığışanların alqış sədaları alov dilimlərinə qarışıb göylərə yüksəldi. Tonqalın gur işığı fərəhli çöhrələri nura boyadı. Bu an ürəklərə yalnız sevinc hakim kəsilmişdi. Sanki illərin nisgili, ürəyimizi göynədən həsrət alovlara qarışıb yanırdı. Təbəssümlü baxışlar, gülümsəyən üzlər bayram ovqatını tamamlayır, çərşənbə tonqallarının doğurduğu əhvali-ruhiyyəyə incə çalarlar qatırdı.

Rayon icra hakimiyyətinin başçısı Vaqif Həsənovun ocaq başındakı səmimi söhbəti məhz bu əhvali-ruhiyyədən qaynaqlanırdı:

- Novruz elimizin ən əziz bayramıdır. Yaşı min illərlə ölçülən Novruz xalqımızın çox qiymətli mədəni sərvətidir. Amalı, niyyəti, ən ali məqsədi xeyirxahlıq olan Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü, davamlı səyləri sayəsində Novruz UNESKO-nun mədəni irs siyahısına daxil edilmişdir. Bu, Azərbaycan mədəniyyətinin dünyaya, beynəlxalq aləmə çox uğurlu bir təqdimatı olmaqla, Mehriban xanım Əliyevanın xeyirxahlıq missiyasının məntiqi nəticəsidir. Novruz tonqalını Ermənistan silahlı qüvvələri ilə təmas xəttinin beş addımlığında qalamışıq. Düşmənlərimiz görsünlər ki, biz nikbinik. Hələ müharibə bitməyib, Azərbaycan əsgəri son sözünü deməyib. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müdrik siyasəti sayəsində milli ordumuz bu gün regionun ən güclü ordusudur. Ordumuz düşmən işğalındakı torpaqlarımızı azad etməyə qadirdir. Buna hər kəs əmindir. Biz ağdamlılar bu sarsılmaz inamdan güc alaraq hər zaman möhtərəm Prezidentin yanındayıq. Ali Baş Komandanın əmri ilə hər bir ağdamlı istənilən an silaha sarılıb müqəddəs savaşa atılmağa hazırdır.

Biz Ali Baş Komandana, Azərbaycan əsgərinə güvənir və qələbənin tezliklə reallaşacağına inanırıq. Arzumuz, istəyimiz gələn il Novruz tonqallarını bizim üçün qəribsəyən doğma yurdlarımızda qalamaqdır. Bu istək mayasını dövlətimizin artan qüdrətindən, Vətənini canından artıq sevən oğulların qeyrətindən doğur. Bayramınız mübarək olsun! Hər kəsə qələbə sevinci arzulayıram.

Çərşənbə tonqalının alovlandığı Qasımbəyli qəsəbəsindəki Novruz şənliyinə qatılan qonaqlar arasında olan Qaçqın və Məcburi





Köçkünlərlə İş Üzrə Dövlət Komitəsinin Mənzil İstismarı Departamentinin direktoru Səbuhi Əhmədovun söylədikləri bu məqamda yerinə düşür:

- Ağdamlılar çətin günlərdə heç vaxt inamsız olmayıblar. İsti yuvalarından, doğma və rahat ev-eşiklərindən perik salınıb, yük vaqonlarında, çadır düşərgələrində, torpaq daxmalarda ağır şəraitdə yaşadıqları günlərdə belə ürəklərindəki inam sönməyib. Onlar dövlətin qayğısından güc alaraq inanıblar ki, yaman günün ömrü az olar. Vaxt gələr, məişət rahatlığına qovuşar, ev-eşik sahibi olarlar. İllər öncə Bərdə rayonu ərazisindəki Türk "Qızıl ay" çadır şəhərciyində ağdamlı məcburi köçkünlərlə görüşəndə cənab İlham Əliyev demişdi ki, Azərbaycanda bir çadır şəhərciyi belə qalmayacaq. Elə də oldu. Prezident verdiyi vədə əməl etdi.

Ermənistan silahlı qüvvələrinin işğalçılıq siyasəti hesabına el-obasından perik salınıb qaçqın və məcburi köçkünlərə çevrilən soydaşlarımızın problemlərinin həllini öz fəaliyyətinin prioritet istiqaməti olduğunu dəfələrlə bəyan edən Prezident İlham Əliyevin qayğısından ağdamlılar da yetərincə bəhrələnirlər. İndi rayon ərazisində qaçqın və məcburi köçkünlər üçün inşa olunmuş hər cür infrastruktura malik qəsəbələrin sayı 18-ə çatır. Bu qəsəbələrin hər birində məktəb, uşaq bağçası, səhiyyə müəssisəsi, poçt, klub, icma mərkəzi var. Qəsəbələrə rahat yollar çəkilmiş, fasiləsiz su, elektrik enerjisi və təbii qazla təmin edilmişdir.

Bəli, bu gün Azərbaycanda bir çadır şəhərciyi belə qalmayıb. Bu, öz vətəndaşına hər zaman sahib çıxan qüdrətli Azərbaycanın, bu dövlətin müdrik və qayğıkeş rəhbərinin özünü təsdiqinin hər kəsdə məmnunluq yaradan parlaq təcəssümüdür.

Qasımbəyli qəsəbəsində keçirilən Novruz şənliyinin qonaqlarından biri də Azərbaycan Yazıçılar Birliyinin üzvü, neftçi-şair Nizaməddin Həmişəyev ürək sözlərini belə bildirdi:

- Xalqımız odu, atəşi hər zaman müqəddəs bilib. Ocaq başında səslənən arzuların, diləklərin reallaşacağına inanmışıq. İnamın gücü, qüdrəti isə çox böyükdür. Bu gün Qarabağda, bu çərşənbə tonqalının başında oda, alova üz tutub söylənən arzular, inşallah, tezliklə çin olar. Tezliklə Ağdamda, Şuşada, Laçında, Kəlbəcərdə, işğaldan azad edəcəyimiz digər ərazilərdə daha gur tonqallar çatar, ocaqlar qalayarıq.

Novruz sevinci, bayram ovqatı könüllərdə qeyri-adi bir məmnunluq yaradıb. İnsanlar bir-birini təbrik edir, gözaydınlığı verirlər. Kimi yumurta döyüşdürür, kimi ocaqdan atlanır...

Çərşənbə tonqalı öləzidikdə ətrafa qaranlıq çökür. Aydın səmada isə ulduzlar bərq vurur. Ocaq başında səslənən fikirlərdən doğan arzular çərşənbə tonqalının davamı kimi Vətən sevdalı ürəklərdə alovlanır.

...Göylərin tacı Günəşin artan hərarəti, baharın ılıq nəfəsi ana təbiəti yavaş-yavaş qış yuxusundan oyadır. Bolluq, bərəkət həvəsli Ağdam kəndlisi torpaqla görüşə yeni arzularla çıxır. Rayonda yaz tarla işlərinə mütəşəkkilliklə başlanıb.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# Dövlət proqramlarının icrası regionların inkişafında başlıca rol oynayır







Regionların sosial-itisadi inkişafı Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrası nəticəsində Göygöl rayonunun iqtisadiyyatı da inkişaf edir. Təkcə keçən il rayonda 11 istehsal obyekti istifadəyə verilmiş, iqtisadiyyatın əsas sahələrində istehsal edilən məhsul və xidmətlərin ümumi həcmi 208 milyon manatdan çox olmuşdur.

Rayonda sahibkarlığın inkişafına yaradılmış münbit şərait sayəsində hüquqi şəxslərin sayı 596-ya çatmışdır. Ötən il 24 iş adamına 1 milyon 532 min manat güzəştli kredit verilmiş, 79 yeni iş yeri yaradılmışdır.

İqtisadiyyat yüksəldikcə abadlıq və quruculuq işlərinin həcmi də genişlənir. Keçən il rayon statistika idarəsi üçün yeni inzibati bina istifadəyə verilmiş, məcburi köçkünlərin yaşayış şəraitini yaxşılaşdırmaq üçün 130 mənzillik 5 mərtəbəli 3 binanın tikintisi başa çatdırılmışdır. Hazırda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Göygöl rayon şöbəsi üçün inzibati binada və "Qafqaz" hotelində tikinti işləri davam etdirilir.

Yol infrastrukturunda da bir sıra yeniliklər edilmişdir. Toğanalı, Əzgilli, Nadil, Zurnabad avtomobil yollarında, Çaykənd, Qarabulaq, Quşçu, Quşqara kənddaxili yollarda təmir işləri aparılmış, 8 yaşayış məntəqəsini birləşdirən, 42,3 kilometrlik Gəncə-Kəlbəcər-Laçın avtomobil yolunun yenidən qurulmasına başlanılmışdır.

Aqrar sahəyə göstərilən dövlət qayğısı sayəsində kənd təsərrüfatı məhsulları istehsalı da nəzərəçarpacaq dərəcədə artmışdır. Keçən il rayonda 14946 ton buğda, 5854 ton arpa istehsal edilmişdir.

Rayonda kənd təsərrüfatı təyinatlı torpaqlardan, xüsusilə də pay torpaqlarından təyinatı üzrə səmərəli istifadə olunmasına nəzarət artırılmış, torpaqların təyinatının dəyişdirilərək tikililər aparılmaması və digər məqsədlər üçün istifadəyə qarşı mübarizə gücləndirilmişdir.

Əvvəlki illərdə olduğu kimi, keçən il də fermerlər dövlət yardımlarından layiqincə yararlanmışlar. 1530 nəfər toxum və kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət büdcəsindən 728 min 263 manat subsidiya və yardım ödənilmişdir. 730 kənd təsərrüfatı məhsulları istehsalçısına 70 faiz güzəştlə 1326 ton mineral gübrə, 3973 litr kimyəvi preparat satılmışdır.

Heyvandarlar da uğurlarını ildən-ilə artırırlar. Hazırda rayonda 324 baş cins heyvan bəslənilir. Süni yolla mayalandırılmış 1136 baş inəkdən 432 baş cins bala alınmış, heyvan sahiblərinə ümumilikdə 42 min 900 manat məbləğində subsidiya ödənilmişdir. Mal-qaranın artımı hesabına keçən il əvvəlki illə müqayisədə süd istehsalı 213 ton, ət istehsalı isə 14,8 ton çox olmuşdur.

Əkin sahələrini suvarma suyu ilə təminatda yaranan çətinlikləri aradan qaldırmaq üçün də bir sıra məqsədyönlü işlər həyata keçirilir. Əkin sahələrinin suvarılmasında istifadə edilən subartezian quyularının 248-də cari, üçündə əsaslı təmir işləri aparılmış, Yeni Qızılca kəndində iki, Balçılı, Qırıxlı, Xaqani, Quşqara və Səmədli kəndlərinin hərəsində bir subartezian quyusu istifadəyə verilmişdir.

Əhalinin təbii qaz təchizatını daha da yaxşılaşdırmaq məqsədilə Göygöl şəhərinin A.Şəmşir küçəsində, Üçtəpə, Nadil kəndlərində və Qızılqaya qəsəbəsində köhnə borular yenisi ilə əvəz edilmişdir. Aşağı Zurnabad qəsəbəsinin qazlaşdırılması üçün daşıyıcı və paylayıcı qaz xətləri çəkilmiş, mənzillərə qaz sayğacı quraşdırılmışdır. Hazırda bu iş davam etdirilir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***











# Bakının 60 faizini işıqlandıran "Xırdalan" yarımstansiyası yenidən qurulur

**"Azərenerji" ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə, "Azərenerji"nin Bakı və Abşeron yarımadasının 60 faizə yaxın ərazisini elektrik enerjisi ilə təchiz edən və paytaxtdakı əksər 110 kilovoltluq yarımstansiyaları qidalandıran sistem əhəmiyyətli 220 kilovoltluq "Xırdalan" yarımstansiyası tam yenidən qurulur.**

1953-cü ildə tikildiyindən istismar müddətini çoxdan keçən yarımstansiyada əhalinin, o cümlədən iqtisadiyyatın artan tempini qarşılamaq, qəzaların qarşısını almaq, itkiləri azaltmaq, eyni zamanda paytaxtın etibarlı və dayanıqlı enerji ilə təmin edilməsi məqsədilə avadanlıqlar bütün parametrlər üzrə yenilənir. Artıq "Xırdalan" yarımstansiyasında 220 və 110 kilovoltluq açıq paylayıcı qurğuların yeni texnologiyalar əsasında yenidən qurulmasi prosesi və bütövlükdə metal-konstruksiya işləri başa çatıb.

Ərazidə yeni inzibati bina tikilib. Burada müasir tipli, məsafədən idarəolunan SCADA dispetçer sistemi qurularaq ümumi sistemə qoşulacaq və məlumatları qəbul etməklə yanaşı sistemə ötürəcək. Yarımstansiyada işlərin böyük hissəsi artıq yekunlaşıb və yaxın müddətdə işlər tamamlanacaq. Qeyd edək ki, "Azərenerji" "Reabilitasiya Proqramı" çərçivəsində 12 elektrik stansiyasında, 20-dək yarımstansiyada kompleks şəkildə yenidənqurma, təmir və bərpa işləri həyata keçirir.

# Azərbaycanlı atlet Kolumbusda gümüş qazandı

Bu günlərdə Amerika Birləşmiş Ştatlarının Ohayo ştatının Kolumbus şəhərində Arnold İdman festivalı keçirilir. Yarışlarda həmyerlimiz, Azərbaycan Pauerliftinq Federasiyasının üzvü olan İsmayıl Quliyev də iştirak edir. O, pauerliftinqin benç-press növünün yüngül təchizat divizionunda 16 rəqiblə mübarizə apararaq 100 kiloqramadək çəki dərəcəsində 250 kiloqram ağırlığın öhdəsindən gəlmiş və bu nəticə ilə 2-ci yerə layiq görülmüşdür.



Xatırladaq ki, bir neçə il öncə atletimiz Avstriyanın paytaxtı Vyanada pauerliftinq üzrə dünya çempionatında da uğurla iştirak etmiş və 100 kiloqram çəki dərəcəsində benç-press növündə 220 kiloqram ağırlığı sinədən qaldıraraq gümüş medala sahib olmuşdur.

*"Azərbaycan"*

# "Azərsu" ASC daxili vəsaiti hesabına elektron satınalma vasitəsi ilə elektrik lampalarının satın alınması üzrə

## *açıq tender elan edir*

Malgöndərənlər (podratçılar) https://www.etender.gov.az - dövlət satınalmalarının vahid internet portalından tender haqqında ətraflı məlumatı əldə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: Tender predmeti üzrə oxşar təcrübənin mövcudluğu (son 3(üç) il üzrə oxşar mal-materialların təchizatı və həcmi üzrə icra edilmiş ən azı 2(iki) müqavilə) və ən aşağı qiymət təklifi.

Malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra dövlət satınalmalarının vahid internet portalından əldə edə bilərlər.

**Tenderdə iştirak haqqı 200 manatdır.**
**Təşkilat: "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank"ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. İ. F. T. BIK: AİİBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- tenderdə iştirak etmək üçün yazılı müraciət (tender komissiyasının adına);
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
- malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayışı;
- malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.
- müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 8 aprel 2020-ci il saat 16.00-a qədər, tender təklifi və bank təminatını isə 16 aprel 2020-ci il saat 18.00-a qədər dövlət satınalmalarının vahid internet portalı vasitəsi ilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı 17 aprel 2020-ci il saat 16.00-da dövlət satınalmalarının vahid internet portalında həyata keçiriləckdir.

***Tender komissiyası***

# Bakı Şəhər İcra Hakimiyyəti Mənzil-Kommunal Təsərrüfatı Departamenti

## *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbacyan Respublikasının Qanununa uyğun olaraq, aşağıda göstrəilən LOT üzrə tender təkliflərini imzalanıb möhürlənmiş, ikiqat zərflərdə yazılı təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları nəzərə almalıdılar.

**LOT-3 Kommunal təyinatlı maşın və mexanizmlərin alınması**

Tender iştirakçılarının ixtisas göstəricilərinin müqayisəsi zamanı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 6.2 maddəsində göstərilən meyarlara üstünlük veriləcək. Tenderdə iştirak etmək istəyənlər LOT üçün 400 manat məbləğində iştirak haqqını sifarişçinin bankdakı hesablaşma hesabına köçürdükdən sonra göstərilmiş ünvandan tenderin əsas şərtlər toplusunu ala bilərlər. Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

**İştirak haqqı aşağıdakı hesaba köçürülməlidir.**

**Təşkilat: Bakı Şəhər Mənzil-Kommunal Təsərrüfatı Departamenti**
**Beynəlxalq Bankın Nərimanov filialı Kod: 805540 VÖEN 9900001881**
**M/h AZ03NABZ01350100000000002944, SWIFT BIK IBAZAZ2X,**
**h/h AZ14IBAZ38060019449887596206, VÖEN 1500116861**

**İştirak haqqı heç bir halda qeri qaytarılmır.**

Tenderdə iştirak etmək istəyənlər **21.04.2020-ci il saat 17:00-dək** aşağıdakı sənədləri Tender komissiyasına təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcək.

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *İştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitlər;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair öhdəliklərin olub-olmaması barədə arayışlar;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanı tərəfindən təsdiq edilmiş maliyyə hesabatları;*
- *analoji işlərin yerinə yetirilməsinə dair iddiaçının potensial imkanları haqqında məlumat;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *tender təklifi zərflərin açıldığı gündən sonra azı 30 bank günü müddətində qüvvədə olmalıdır;*
- *tender təklifinə onun ümumi dəyərinin 1 faizi məbləğində bank zəmanəti ilə təminat verilməlidir. Həmin təminat zərflərin açıldığı gündən sonra azı 60 bank günü müddətində qüvvədə olmalıdır.*

İddiaçılar LOT üzrə tender təkliflərini **29.04.2020-ci il saat 17:00-a** qədər aşağıda göstərilən ünvana təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Tender proseduru **30.04.2020-ci il saat 16:00-da** Bakı Şəhər Mənzil-Kommunal Təsərrüfatı Departamentinin binasında (Ceyhun Hacıbəyli küç., 220, (keçmiş N.Yusifbəyli küç., 73)) keçiriləcəkdir.

Tenderlə əlaqədar məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

**Əlaqələndirici şəxs: telefon: 465-62-29**

***Tender komissiyası***

# BİLDİRİŞ

Qax Suvarma Sistemləri İdarəsi tərəfindən 18 fevral 2020-ci il tarixdə "Azərbaycan" qəzeti və etender.gov.az sayıtında verilmiş elana əsasən, 06 mart 2020-ci il saat 10:00-da cari təmir üçün tikinti materiallarının satın alınması məqsədilə keçirilməsi nəzərdə tutulan açıq tender müsabiqəsi yetəri sayda tender təklifinin olmaması səbəbindən ləğv edilmişdir.

***Tender komissiyası***

# BİLDİRİŞ

02 mart 2020-ci il tarixdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti tərəfindən nəqliyyat vasitələrinin cari təmir işlərinin satın alınması üçün keçirilən kotirovka sorğusunda "Neodent S" MMC qalib olmuşdur.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

# "Mingəçevir Şəhər Mərkəzi Xəstəxanası" Publik Hüquqi Şəxsi 2020-ci ilin 1-ci rübü üçün

## *kotirovka sorğusu elan edir*

1. Nəqliyyat vasitələrinin əsaslı təmiri maddəsi üzrə
2. Nəqliyyat vasitələrinin cari təmiri maddəsi üzrə
3. Sürtkü materiallarının alınması

Kotirovka sorğusunun müraciətləri 13.03.2020-ci il saat 11:00 tarixədək qəbul edilir.
**Zərflərin açılması: 13.03.2020-ci il saat 12:00**

**Ünvan: Mingəçevir şəhəri, 20 Yanvar küçəsi, 12**
**Telefon: +994555004599; +994552041520**

***Tender komissiyası***

# XİN: "Belçikada Natəvanın abidəsinə qarşı vandalizmin törədilməsi ilə bağlı cinayət işi açılıb"

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Belçikanın Vaterlo şəhərində Xurşidbanu Natəvanın abidəsinə qarşı vandalizmin törədilməsinə münasibət bildirib.

AZƏRTAC xəbər verir ki, Leyla Abdullayeva deyib: "Belçikanın Vaterlo şəhərində ölkəmizin görkəmli şairəsi, Qarabağ xanının qızı Xurşidbanu Natəvanın abidəsinə qarşı vandalizmin törədilməsi ilə əlaqədar şəhər polisi tərəfindən cinayət işi açılıb. 2016-cı ildə ucaldılmış heykəl Vaterlo şəhərinin mühafizə edilən tarixi abidələri siyahısına daxildir və bu səbəbdən sözügedən hadisə polis tərəfindən araşdırılır.

Əlbəttə, bu vandalizmin Ermənistan baş nazirinin Belçikaya səfəri zamanı baş verməsi diqqəti cəlb edir. Qeyd etmək istərdim ki, ölkəmizin Belçika Krallığındakı səfirliyinin əməkdaşları dərhal hadisə yerinə gedərək, yerli hakimiyyət orqanları ilə təmaslar qurublar. Məsələ Azərbaycanın Belçikadakı səfirliyinin nəzarətində saxlanılır və araşdırmanın nəticələri ilə bağlı ictimaiyyətə məlumat veriləcək".

# Qubadlı Rayon İcra Hakimiyyəti tabeliyində olan Kommunal Müəssisələr Kombinatına 2020-ci il üçün xidməti minik avtomobil nəqliyyat vasitəsinin alınması məqsədilə

## *kotirovka sorğusu elan edir*

Ünvan: Qubadlı Rayon İcra Hakimiyyəti, Sumqayıt şəhəri, İnşaatçılar qəsəbəsi.
Tel: +99418-654-38-68
Tel: +99450-286-39-69
Qeyd: Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 13 mart 2020-ci il saat 11:00-a kimi qəbul olunur.

***Tender komissiyası***

# BİLDİRİŞ

Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binalarında istismar olunan mebel avadanlıqları və qapı-pəncərə-jalüz sistemləri üçün ehtiyat hissələrinin satın alınması və Azərbaycan Respublikasının Mərkəzi Bankı üçün İP telefon aparatlarının və lisenziyaların satın alınması ilə bağlı kotirovka sorğularına dair Satınalmalar komissiyasının 19 fevral 2020-ci il tarixli qərarına əsasən, 1-ci məsələ üzrə "Qardaşlar Mebel-3" MMC, 2-ci məsələ üzrə isə "Best Telekom" MMC qalib elan edilmişdir.

Qalib şirkətlərlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

# ELAN

Azərbaycan Dövlət Neft Akademiyası, Dövlət Attestasiya Komissiyasının 20 iyun 2001-ci il tarixli qərarı ilə Kamil Ağa Mahmud oğlu Kərimova məxsus A № 084324 nömrəli diplom itmişdir. Tapan şəxsi mükafat gözləyir.

**Əlaqə nömrəsi: +99450 210-64-71**

# ALLAH RƏHMƏT ELƏSİN!

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin Geoloji kəşfiyyat şöbəsinin müdir müavini Fuad Hüseynova anası

**SEVDA XIDIROVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Oktay Seyidbəyov və Ənvər Seyidov ailələri ilə birlikdə "Azercell Telekom" MMC-nin prezidenti Vahid Mürsəliyevə atası

**ŞAMİL MÜRSƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Respublika Dəri-Zöhrəvi Mərkəzinin rəhbərliyi və kollektivi mərkəzin işçisi Rasim Mahmudova anası

**AĞABƏYİM XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Tibb Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsinin kollektivi Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımova atası

**LƏTİF QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Tibb Universitetinin Qulaq, burun və boğaz xəstəlikləri kafedrasının əməkdaşları iş yoldaşları, dosent Cahangir Qasımova atası

**LƏTİF MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 6953
Sifariş 859
Qiyməti 40 qəpik